**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**MAGİSTRATURA MƏRKƏZİ**

***Əlyazması hüququnda***

**BƏHMƏNLİ ŞAİQ FAMİL OĞLU**

# "MÜŞTƏRƏK SAHİBKARLIĞIN İNKİŞAFI PROBLEMLƏRİ"

mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**İstiqamətin şifri və adı:** **060409 "Biznesin idarə edilməsi"**
**İxtisasın şifri və adı** **"Biznes inzibatçılığı"**

**Elmi rəhbər:**
i.ü.f.d., dosent A.T.Hüseynli

**Magistr proqramının rəhbəri:**
i.e.n., dosent Abbasova R.A.

**Kafedra müdiri:**
i.e.n. dos. M.Ə.Əliyev

**BAKI - 2017**

# Mündəricat


**GİRİŞ......................................................................................................3**

**Fəsil 1. Müştərək (birgə) sahibkarlığın formalaşması və inkişafına nəzəri-metodoloji yanaşmalar ...................................................................... 6**

1.1. Müştərək (birgə) sahibkarlığın formalaşması və inkişafının səciyyəvi xüsusiyyətləri ......................................................................................6

1.2. Beynəlxalq kooperasiya müştərək sahibkarlığın idarə edilməsi və inkişafının əsas amili kimi............................................................................. 19

1.3. Transmilli korporasiyalar (TMK) – müştərək müəssisələrin formalaşmasının təkmil strukturu kimi........................................................................ 25

**Fəsil 2. Müştərək sahibkarlığın müasir vəziyyətinin, inkişaf meyllərinin və idarə edilməsinin qiymətləndirilməsi ...................................................... 33**

2.1. Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti və inkişaf meylləri........................................................................................... 33

2.2. Birgə müəssisələrin inkişafının və idarə edilməsinin müasir xüsusiyyətləri........................................................................................38

2.3. Azərbaycanda birbaşa xarici investisiyaların müasir inkişaf meyllərinin qiymətləndirilməsi...............................................................................44

**Fəsil 3. Müştərək sahibkarlığın idarə edilməsi səmərəliliyinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi.......................................50**

3.1. Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə qərarların işlənməsi, qəbulu və həyata keçirilməsi səmərəliliyinin artırılması istiqamətləri........................................................................................ 50

3.2. Müştərək sahibkarlığın idarə edilməsi proseslərinin səmərəliliyinin qiymətləndirilməsinə metodiki yanaşma.................................................. 56

3.3. Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi mexanizminin işlənib hazırlanması.............................................................. 61

**NƏTİCƏ.....................................................................................................69**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT.......................................................81**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Ölkənin sosial-iqtisadi inkişafının indiki şəraitində yerli sahibkarlıq strukturlarının rəqabətqabiliyyətli inkişafını təmin etmək məqsədi ilə müştərək sahibkarlığın təşkili və idarə edilməsi problemlərinin həlli mühüm rol oynayır. Birgə müəssisələrin yaradılması yeni bazarlara çıxışın, onlarda möhkəmlənməyin, və innovativ texnologiyaların tətbiqindən mənfəət almağın, eləcə də resursların və yeni imkanların səmərəli istifadəsini mühüm istiqmətidir.

Müştərək sahibkarlığın ÜDM-də payı Çində 17%; ABŞ-da - 14%; Almaniyada - 11%; Rusiyada - 8%, Azərbaycanda – 4% təşkil edir.

Birgə müəssisələrin bəziləri, xarici ticarət şirkətləri kimi fəaliyyət göstərir və eyni zamanda gömrük qanunundan yayınırlar, başqa sözlə, qeyri-rəsmi fəaliyyət ilə məşğul olurlar.

Birgə müəssisələrin ümumi sayında xarici işlər infrastrukturunu təşkil edən broker, reklam və injinirinq şirkətləri hakimdir. Belə infrastrukturlara qalsa, daxili bazarda artıq bu cür təkliflər həddən artıqdır ki, bu da belə birgə müəssisələrin ümumi reaksiyasını aşağı salır.

Ümumiyyətlə, müştərək sahibkarlıq fəaliyyətinin strateji əhəmiyyəti əldə edilən kooperasiya müqavilələrindən kənara çıxır. Qeyd etmək lazımdır ki, əslində, birgə müəssisələrin müxtəlif formalarının yaradılması səbəbindən praktikada birgə müəssisə üzrə bir tərəfdaşın zəif tərəflərinin digər güclü tərəflərin hesabına kompensasiya edilməlidir.

Tədqiqat mövzusunun aktuallığı şübhə doğurmur. İnvestisiya mühitinin və müştərək sahibkarlığın inkişafı problemlərinə Azərbaycanda hökumət səviyyəsində böyük diqqət yetirilir, çünki bu gün ölkəmiz üçün çox əhəmiyyət kəsb edən bütövlükdə ölkənin və onun regionlarının iqtisadi inkişafına müsbət təsir göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyasının məqsədi müştərək sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi üzrə nəzəri əsasların inkişafından və metodiki tövsiyələri əsaslandırılmasından ibarətdir.

Dissertasiyada bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- müştərək sahibkarlığın vəziyyətinin təhlil edilməsi, üstünlükləri və mənfi cəhətlərinin qeyd olunması;

- müştərək sahibkarlığın yaradılması üzrə idarəetmə qərarlarının işlənib hazırlanması və qəbulunda meydana çıxan problemlərin müəyyən edilməsi;

-- müştərək sahibkarlığın yaradılması və idarə edilməsi üzrə yerli və xarici təcrübənin təhlili;

- müştərək sahibkarlıq fəaliyyətinin göstəricilər sisteminin və əsas xüsusiyyətlərinin araşdırılması;

- müştərək sahibkarlıqda idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi metodikasına müəllif yanaşmasının əsaslandırılması;

- müştərək sahibkarlıqda idarəetmə qərarlarının səmərəliliyinin artırılması və inkişafı proqramlarının həyata keçirilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması.

**Tədqiqatın obyekti** - xarici kapitalın (müştərək müəssisələrin) iştirakı ilə Azərbaycan müəssisələrinin iqtisadi fəaliyyətidir.

**Tədqiqatın predmeti** - müasir iqtisadi inkişaf şəraitində Azərbaycanda və onun regionlarında müştərək sahibkarlığın formalaşması və idarə edilməsi prosesidir.

**Tədqiqat nəzəri bazasını** iqtisadi nəzəriyyə, idarəetmə, iqtisadi təhlil, biznes, regional iqtisadiyyat sahəsində yerli və xarici alimlərin aparıcı əsərlərində olan elmi müddəalar, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş müvafiq Strateji Yol Xəritələri təşkil edir.

**Tədqiqatın metodları:** sistemli yanaşma, müqayisəli təhlil, iqtisadi-statistik və digər üsullar.

**Tədqiqat informasiya bazası.** Təhlil və statistik məlumat mənbələri Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, İqtisadiyyat, Vergi nazirliklərinin, Dövlət Gömrük Komitəsinin materialları və s. təşkil etmişdir.

**Dissertasiyasının elmi yeniliyi** ölkənin və onun regionlarının resurslarının səmərəli istifadəsini təmin edən müştərək sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi mexanizminin formalaşdırılması üzrə müvafiq nəzəri-metodiki və praktiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqat yeniliyini müəyyən edən əsas elmi nəticələr aşağıdakılardır:

- müştərək sahibkarlığın mövcud vəziyyətinin beynəlxalq səviyyədə təhlili aparılmaqla, onun üstünlükləri və mənfi cəhətləri üzə çıxarılmışdır;

- müştərək sahibkarlığın yaradılması ilə bağlı idarəetmə qərarlarının işlənib hazırlanması və qəbulunda meydana çıxan problemlər aşkara çıxarılmış və onların aradan qaldırılması yollarına dair müvafiq tövsiyələr verilmişdir;

- Azərbaycanda birbaşa xarici investisiyaların müasir inkişaf neylləri təhlil edilərək qiymətləndirilmişdir;

-- müştərək sahibkarlığın yaradılması və idarə edilməsi üzrə yerli və xarici təcrübələr təhlil edilərək ümumiləşdirilmiş, müştərək sahibkarlıq fəaliyyətinin əsas xüsusiyyətlərini müəyyənləşdirilmişdir;

- müştərək sahibkarlıqda idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi metodikasına müəllif yanaşması əsaslandırılmışdır;

- müştərək sahibkarlıqda idarəetmə qərarlarının səmərəliliyinin artırılması və inkişafı proqramlarının həyata keçirilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı müvafiq təkliflər verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələri müştərək sahibkarlıq fəaliyyətinin təşkili və idarə edilməsi mexanizminin təkmilləşdirilməsinə yönəldilmişdir. Bu cür tətbiq mexanizmindən müştərək sahibkarlıq şirkətlərində, onların praktiki fəaliyyətində istifadə oluna bilər.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olmaqla, ədəbiyyat siyahısı ilə birlikdə kompüter yazısında 83 səhifədir və özündə 8 cədvəli, 6 şəkli əhatə edir.

# FƏSIL 1. MÜŞTƏRƏK (BİRGƏ) SAHIBKARLIĞIN FORMALAŞMASI VƏ İNKİŞAFINA NƏZƏRI-METODOLOJİ YANAŞMALAR

## *1.1. Müştərək (birgə) sahibkarlığın formalaşması və inkişafının səciyyəvi xüsusiyyətləri*

Müştərək (birgə) müəssisələr – müəyyən bir dövlətin şirkətləri ilə yanaşı, digər bir dövlətin də şirkətlərinin də iştirak etdiyi şirkətlər, təşkilatlar və ya əlaqələndirici vahidlərdir. Kollektiv istehsal, məhsulların satışı, elmi-tədqiqat işlərinin, tikintinin, konsaltinqin, texnologiya xidmətlərinin yerinə yetirilməsi, nəqliyyat, maliyyə, sığorta və digər xidmətlərin həyata keçirilməsi məqsədilə yaradılır.

"Müştərək müəssisə" termini ingiliscə «joint venture» anlayışının analoqu kimi birgə fəaliyyətin çoxsaylı növlərini, xüsusilə də, firmalararası müqavilə əlaqələrini: iqtisadi, konsaltinq, elmi, texnoloji və s.əlaqələri birləşdirir ki, belə bir şirkət növü XIX əsrdə Qərbdə qeydə alınmışdır. XX əsrdə azad rəqabətin dalğasında, dövriyyə sahəsində geniş yayılmış və əsrin ortalarında isə istehsalın təşkilinin əsas formasına çevrilən ilkin birgə müəssisələr formalaşdı. Müştərək müəssisələr ilk olaraq tikinti və mədən sənayesində iri layihələrin həyata keçirilməsi üçün yaradılmış, XX əsrin 60-cı illərindən etibarən isə emal sənayesi sahələrində belə müəssisələrin yaradılması prosesinə başlanıldı [3,8, 17].

İqtisadi və hüquqi ədəbiyyatda müxtəlif terminlər – "birgə müəssisələr", "qarışıq şirkətlər", "vençur müəssisələr", "kooperativ müəssisələr", "xarici investisiyalı müəssisə" və s. bu kimi terminlər yayılmışdır [4,8,21,28].

"Müştərək müəssisələr" termini Avropada iki və ya daha çox iqtisadi cəhətdən müstəqil müəssisələrin nəzarətində olan şirkətlər kimi müəyyən edilir [7].

Müştərək müəssisələr bir qayda olaraq yeni istehsalların yaradılması, mövcud istehsal güclərinin struktur cəhətdən yenidən qurulması və ya şirkətin hissələrinin əldə edilməsi zamanı təşkil olunur. Müştərək müəssisələr şirkətin xarici baxımdan artmasının xüsusi forması kimi təsnif edilə bilər. [25]

«Qarışıq şirkət» termini iki və ya daha çox ölkədən tərəfdaşların kapitalın

birgə mülkiyyəti ilə, mənfəət, risklər və zərərlərin birgə bölgüsü və birgə idarəçiliyi ilə xarakterizə edilən müştərək sahibkarlıq formasını ifadə edir. Azərbaycanda bu termin, hər şeydən əvvəl, tərəfdaşların iştirakı zamanı Azərbaycanın iqtisadi təşkilatları ilə yaradılan xarici ölkələrin ərazilərində fəaliyyət göstərən şirkətlərin (səhmdar cəmiyyəti və ya məhdud məsuliyyətli şirkətlər) müəyyən edilməsi üçün istifadə olunur.

Alman müəllifləri ingilis termini olan «joint venture» və alman termini olan «Gemeinschaftsuntemehmen» - ümumi, birgə müəssisələr terminindən istifadə edirlər. İngilis-amerikan hüququnda «partnership» (tərəfdaşlıq) termini istifadə edilir ki, bu da tərəfdaşlıq kimi tərəflərin əlaqəsini müəyyən edir. Beynəlxalq biznesdə, "kooperativ müəssisə" termini şirkətin xarici filialının tam mülkiyyətində olan alternativləri müəyyən edir: buraya marketinq, texnologiya, idarəetmə (idarəetmə), elmi tədqiqat sahəsindəki əməkdaşlıq sazişləri, birgə müəssisələr daxildir [13, 31, 33].

Qərb maliyyə ədəbiyyatında şirkətlər və tərəfdaşlar arasında əməkdaşlığın müəyyən edilməsi çox vaxt "birgə təşkilatçılıq" anlayışının tərifi ilə əlaqələndirilir, daha doğrusu, kapitalda iştirak prinsiplərinə əsaslanmayan şirkətlərarası müqavilələrinin artan sayını əks etdirməklə geniş şərh olunur. Ayrı-ayrı müəlliflərin əsərlərində birgə sahibkarlıq dedikdə, iki və ya daha çox şirkətlərin işinin qismən inteqrasiya olunmasına kömək edən müqavilələrin bütün növləri başa düşülür; buraya adətən satış, elmi-tədqiqat, resursların hasilatı, xidmətlər istehsalı və təqdim olunması kimi əməliyyatlar daxildir [30].

Bu gün Qərb ədəbiyyatında "müştərək sahibkarlıq" termini ilə firmalararası əməkdaşlığın və ya kooperasiyanın müxtəlif formaları göstərilir. Birgə sahibkarlığın geniş tərifini İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının mütəxəssisləri tərəfindən verilir: "Müştərək müəssisələr - iki və ya daha çox şirkətlərin işlərinə kömək edən müqavilə formalarıdır. Bu alış və satış, tədqiqat və təbii ehtiyatların hasilatı, injinirinq, tikinti və digər əməliyyatlar şəklində ola bilər"[26].

Müştərək müəssisələrin yaradılmasının məqsədi tərəfdaşları üçün

uzunmüddətli gəlir imkanlarının yaxşılaşdırılmasından ibarətdir. Müştərək sahibkarlığın əsas məqsədi yalnız tərəfdaşların qarşılıqlı təsiri zamanı yerinə yetirilə bilən hədəflərə nail olmanın nəticəsidir. Müştərək sahibkarlığın ümumi məqsədi tərəfdaşlar tərəfindən uzunmüddətli mənfəət alınması imkanlarının təkmilləşdirilməsini nəzərdə tutur ki, bu da çoxsaylı üsullarla əldə edilə bilər:

- yeni mənimsənilməmiş bazarlara girişlə;
- səmərəliliyinin artırılması və xərclərin azaldılması ilə;
- bazarda vəziyyətin yaxşılaşdırılması yolu ilə rəqabətqabiliyyətliliyin artırılması ilə;
- tərəfdaşları arasında bölgüsü yolu ilə risklərin azaldılması ilə.

Müştərək müəssisələrin funksiyaları:

- istehsal;
- elmi-texniki;
- xarici ticarət və digər funksiyalar.

Birləşmiş Millətlər Təşkilatı (BMT) müştərək müəssisəni iki və ya daha çox şirkətlər tərəfindən yaradılan, mənfəət alınmasına motivasiya edilən və ya öz fəaliyyətini genişləndirmyə çalışan müəssisə, korporasiya və ya tərəfdaşlıq kimi müəyyən edir. Mülkiyyət tərəfdaşlar arasında az və ya çox bərabər sahiblik prinsipləri əsasında bölünür[15].

Dissertasiyada milli və xarici biznes təcrübələrinin tədqiqi əsasında müştərək müəssisələrin müəllif təsnifatı verilmişdir (Şəkil 1).

Müştərək müəssisələri aşağıdakı müxtəlif əlamətlərə görə təsnifləşdirmək olar:

1. Yerləşdiyi yerə görə:
   - sənaye cəhətdən inkişaf etmiş ölkələr;
   - inkişaf etməkdə olan ölkələr.
2. Mülkiyyət formalarına görə:
   - yalnız özəl kapitalın iştirakı ilə;
   - özəl firmaların və dövlət müəssisələrinin iştirakı ilə;

- milli və beynəlxalq təşkilatların iştirakı ilə.

3. Tərəfdaşların iştirak payına görə:

- paritet başlanğıclarla yaradılmış müəssisələr;
- xarici kapitalın üstün iştirakı ilə yaradılmış müəssisələr;
- xarici tərəfdaşın az iştirak payı olan müəssisələr.

4. Fəaliyyət növlərinə görə:

- elmi-tədqiqat xarakterli müştərək müəssisələr;
- istehsal xarakterli müştərək müəssisələr;
- tədarükçü müştərək müəssisələr;
- satış müştərək müəssisələri;
- kompleks müştərək müəssisələr.

5. İştirakın xarakterinə görə:

- bütün iştirakçılar idarəetmədə fəal iştirak edirlər;
- kapital qoyuluşlarının maliyyələşdirilməsində passiv iştirakı istisna olmaqla bütün tərəflərin iştirakı.

| Müştərək müəssisələrin növləri | |
|---|---|
| Yerləşdiyi yer | - sənaye cəhətdən inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan ölkələr. |
| Mülkiyyət formaları | - yalnız özəl kapitalın iştirakı ilə;<br>- özəl firmaların və dövlət müəssisələrinin iştirakı ilə;<br>- milli və beynəlxalq təşkilatların iştirakı ilə. |
| Tərəfdaşların iştirak payı | - paritet başlanğıclarla yaradılmış müəssisələr;<br>- xarici kapitalın üstün iştirakı ilə yaradılmış müəssisələr;<br>- xarici tərəfdaşın az iştirak payı olan müəssisələr. |
| Fəaliyyət növləri | - elmi-tədqiqat xarakterli müştərək müəssisələr;<br>- istehsal xarakterli müştərək müəssisələr;<br>- tədarükçü müştərək müəssisələr;<br>- satış müştərək müəssisələri;<br>- kompleks müştərək müəssisələr. |
| İştirakın xarakteri | - bütün iştirakçılar idarəetmədə fəal iştirak edirlər;<br>- kapital qoyuluşlarının maliyyələşdirilməsində passiv iştirakı istisna olmaqla bütün tərəflərin iştirakı. |

**Şəkil 1.1.Yerli və xarici təcrübədə müştərək müəssisələrin növlərinin təsnifatı**

Tərəfimizdən aparılan tədqiqatlar müştərək müəssisələrin xüsusiyyətlərini və üstünlüklərini müəyyən etməyə və qruplaşdırmağa imkan vermişdir (Şəkil 1.2, 1.3).

Müştərək müəssisələrin xüsusiyyətlərini ümumi və xüsusi olmaqla iki qrupda birləşdirmək olar:

1. Ümumi:

- tərəfdaşlardan hər birinin kapitala töhvəsi olan aktivlərin (vəsaitlərin, əsas fondların,intellektual mülkiyyətin və s.) qismən birləşdirilməsi;

- hər bir tərəfdaşın idarəetmə orqanlarının köməyilə həyata keçirilən idarəetmə və risklərlə bağlı məsuliyyətin bölüşdürülməsi;

- hər bir tərəfdaşın öz istehsal fərdiliyinin saxlanması;

- hər bir tərəfdaşın kapital qoyuluşuna uyğun olaraq sahibkarlıq mənfəətinin və risklərinin bölüşdürülməsi;

- müştərək müəssisələrin yaradılmasında iştirak edən kapitalların müxtəlif "milliliyi";

- tərəfdaşlar arasında müqavilə;

- tərəfdaşların kapital qoyuluşu formalarının müəyyən edilməsi;

- sahibkarlıq fəaliyyətinin həyata keçitilməsi;

- maraqların ümumiliyi;

- müştərək müəssisə üzərində nəzarəti təmin edən payın müəyyən edilməsi;

- iştirak payının məsuliyyətinin məhdudlaşdırılması;

- fəaliyyət dövrünün (məhdud və ya qeyri məhdud) müəyyən edilməsi.

2. Xüsusi:

- daha təkmil avadanlığın köməyilə yeni texnologiyaların mənimsənilməsi;

- ölkələrin məhdud imkanları şəraitində qərb texnologiyalarının istehsal prosesinə inteqrasiyası;

- istehsala investisiyaların artırılması;

- istehsalın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;

- vacib gəlirlər mənbəyinin ya öz məhsulunun ixracı hesabına, ya da

müxtəlif xidmət növlərinin təqdim olunması hesabına möhkəm valyuta ilə alınması.

Müştərək müəssisələrin üstünlüklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Təşkilati:

- tərəflərin bir və ya bir neçə təsərrüfat fəaliyyəti sferalarında uzunmüddətli əməkdaşlığa istiqamətlənmə;

2. İstehsal:

- bütün istehsalqabağı, isatehsal və satış sferalarında qarşılıqlı təsir üzrə tərəfdaşların qüvvələrinin kompleks istifadə imkanı; tərəfdaşlara məxsus məhsuldar qüvvələrin bir-birini qarşılıqlı tamamlayan daha güclü elementlərin birləşdirilməsi; sinegetik effektin əldə edilməsi;

-müvafiq bazarın dərindən öyrənilməsi və burada fəaliyyətin genişləndirilməsi üçün zəruri olan təcrübənin əldə edilməsi imkanı;

3. Maliyyə:

- ümumi məqsədin əldə edilməsi üçün tərəfdaşların mülkiyyətinin birləşdirilməsi; nizamnamə kapitalının birgə formalaşdırılması

- bütün istehsalqabağı, isatehsal və satış sferalarında qarşılıqlı təsir üzrə tərəfdaşların qüvvələrinin kompleks istifadə imkanı; tərəfdaşlara məxsus məhsuldar qüvvələrin bir-birini qarşılıqlı tamamlayan daha güclü elementlərin birləşdirilməsi; sinegetik effektin əldə edilməsi;

- texnologiyaların istifadəsi, məhsul iş və xidmətlərin istehsalı nəticəsində alınan müştərək müəssisələrin mənfəətində iştirakı; müştərək müəssisənin mənfəətinin onun təsisçiləri arasında, bir qayda olaraq, onların nizamnamə kapitalına qoyduqları kapital qoyuluşuna mütənasib olaraq bölüşdürülməsi;

- müştərək müəssisədən kooperasiya əlaqələri üzrə xarici tərəfdaş firmaya daxil olan məhsul istehsalı xərclərinin aşağı salınması;

- müştərək müəssisənin fəaliyyəti ilə bağlı inzibati, idarəetmə və satış məsrəflərinə nisbi qənaət;

- tərəfdaşların müştərək riski və birgə məsuliyyətin məhdudlaşdırılması;

- istehsal həcminin artımı və əlavə məsrəflərin daha geniş bölgüsü hesabına

qənaətin alınması;

4. Marketinq:

- müəssisənin idarəetmə orqnlarından – müştərək müəssisənin təsisçilərindən asılı olmayan müştərək müəssisənin idarəetmə orqanlarının (Direktorlar Şurasının, idarəetmə heyətinin) formalaşması;

- satış şəbəkəsinin genişlənməsi.




**Şəkil 1.2. Müştərək müəssisələrin xüsusiyyətləri**

Araşdırmalar göstərir ki, birgə müəssisələrin ümumi xüsusiyyətləri iki və ya daha çox tərəfdaşları olan hər hansı bir sahibkarlıq strukturu üçün xarakterikdir.

Özəl xüsusiyyətlər birgə sahibkarlığın spesifik xüsusiyyətlərini xarakterizə edir: yeni texnologiyaların mənimsənilməsi, investisiyanın artırılması, rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, və s:

Üstünlükləri

Təskilati

- tərəflərin bir və ya bir neçə təsərrüfat fəaliyyəti sferalarında uzunmüddətli əməkdaşlığa istiqamətlənmə;

İstehsal

- bütün istehsalqabağı, isatehsal və satış sferalarında qarşılıqlı təsir üzrə tərəfdaşların qüvvələrinin kompleks istifadə imkanı; tərəfdaşlara məxsus məhsuldar qüvvələrin bir-birini qarşılıqlı tamamlayan daha güclü elementlərin birləşdirilməsi; sinegetik effektin əldə edilməsi;
-müvafiq bazarın dərindən öyrənilməsi və burada fəaliyyətin genişləndirilməsi üçün zəruri olan təcrübənin əldə edilməsi imkanı;

Maliyyə

- ümumi məqsədin əldə edilməsi üçün tərəfdaşların mülkiyyətinin birləşdirilməsi; nizamnamə kapitalının birgə formalaşdırılması
- bütün istehsalqabağı, isatehsal və satış sferalarında qarşılıqlı təsir üzrə tərəfdaşların qüvvələrinin kompleks istifadə imkanı ; tərəfdaşlara məxsus məhsuldar qüvvələrin bir-birini qarşılıqlı tamamlayan daha güclü elementlərin birləşdirilməsi; sinegetik effektin əldə edilməsi;
- texnologiyaların istifadəsi, məhsul iş və xidmətlərin istehsalı nəticəsində alınan müştərək müəssisələrin mənfəətində iştirakı; müştərək müəssisənin mənfəətinin onun təsisçiləri arasında, bir qayda olaraq, onların nizamnamə kapitalına qoyduqları kapital qoyuluşuna mütənasib olaraq bölüşdürülməsi;
- müştərək müəssisədən kooperasiya əlaqələri üzrə xarici tərəfdaş firmaya daxil olan məhsul istehsalı xərclərinin aşağı salınması;
- müştərək müəssisənin fəaliyyəti ilə bağlı inzibati, idarəetmə və satış məsrəflərinə nisbi qənaət;
- tərəfdaşların müştərək riski və birgə məsuliyyətin məhdudlaşdırılması;
- istehsal həcminin artımı və əlavə məsrəflərin daha geniş bölgüsü hesabına qənaətin alınması;

Marketinq

- müəssisənin idarəetmə orqnlarından – müştərək müəssisənin təsisçilərindən asılı olmayan müştərək müəssisənin idarəetmə orqanlarının (Direktorlar Şurasının, idarəetmə heyətinin) formalaşması;
- satış şəbəkəsinin genişlənməsi.

**Şəkil 1.3. Müştərək müəssisələrin üstünlükləri**

Müştərək müəssisələr formasında xarici şirkətlərin işi investorlar üçün aşağıdakı amillərlə ifadə olunan konkret üstünlükləri müəyyən edir:

- demək olar ki, bütün ölkələrdə müştərək müəssisələrin yaradılması üçün liberal iş rejimi mövcuddur;

- qeydiyyat zamanı, şirkətlər milli şirkətlərlə eyni hüquqlara malikdirlər;

- nizamnamə kapitalında iştirak payının hesabına riskin azaldılması;

- səhmlərin vasitəsilə əlavə maliyyə vəsaitlərini cəlb etmək imkanı;

- yerli tərəfdaşın cəlb edilməsi zamanı qəbul edən ölkədən imtiyazlar;

- tərəfdaş təşkilatının təcrübəsinin, eləcə də nüfuzunun və s. tətbiqi ehtimalı.

Xarici bazarlara çıxışların mürəkkəbliyi və tərəfdaşların birgə səylərinin zəruriliyi, rəqabətin kəskinləşməsi və elmi-texniki irəliləmələrlə, elmi tədqiqat və araşdırmalara yüksək xərclərlə və riski ilə bağlı iqtisadiyyatın qeyri-müəyyənliyi birgə sahibkarlığa ruhlandırır. Təşkilati və istehsal-texnoloji bacarıqlara malik tərəfdaşlar arasında mübadiləyə xüsusi əhəmiyyət verilir.

Müştərək müəssisələrin xüsusiyyətlərini ümumi və xüsusi olmaqla iki qrupda birləşdirmək olar:

2. Ümumi:

- tərəfdaşlardan hər birinin kapitala töhvəsi olan aktivlərin (vəsaitlərin, əsas fondların,intellektual mülkiyyətin və s.) qismən birləşdirilməsi;

- hər bir tərəfdaşın idarəetmə orqanlarının köməyilə həyata keçirilən idarəetmə və ris;klərlə bağlı məsuliyyətin bölüşdürülməsi;

- hər bir tərəfdaşın öz istehsal fərdiliyinin saxlanması;

- hər bir tərəfdaşın kapital qoyuluşuna uyğun olaraq sahibkarlıq mənfəətinin və risklərinin bölüşdürülməsi;

- müştərək müəssisələrin yaradılmasında iştirak edən kapitalların müxtəlif “milliliyi”;

- tərəfdaşlar arasında müqavilə;

- tərəfdaşların kapital qoyuluşu formalarının müəyyən edilməsi;

- sahibkarlıq fəaliyyətinin həyata keçitilməsi;

- maraqların ümumiliyi;

- müştərək müəssisə üzərində nəzarəti təmin edən payın müəyyən edilməsi;

- iştirak payının məsuliyyətinin məhdudlaşdırılması;

- fəaliyyət dövrünün (məhdud və ya qeyri məhdud) müəyyən edilməsi.

2. Xüsusi:

- daha təkmil avadanlığın köməyilə yeni texnologiyaların mənimsənilməsi;

- ölkələrin məhdud imkanları şəraitində qərb texnologiyalarının istehsal prosesinə inteqrasiyası;

- istehsala investisiyaların artırılması;

- istehsalın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;

- vacib gəlirlər mənbəyinin ya öz məhsulunun ixracı hesabına, ya da müxtəlif xidmət növlərinin təqdim olunması hesabına möhkəm valyuta ilə alınması.

Müştərək müəssisənin təşkili müxtəlif cür motivasiya olunur və adətən firmanın biznes strategiyasının əksər istiqamətlərini əhatə edir, belə ki, strategiyada adətən səbəblər olur, odur ki, işdə tərəfimizdən motivasiyanın üç qrupu verilir.

1. Mühüm istehsal anlarının əldə edilməsi. Müştərək müəssisələrin əksəriyyəti tərəfdaşların müəyyən növ resurslara ehtiyacı olması ilə bağlıdır. Adətən, bunlar iqtisadi resursları, məhsuldar qüvvələr, xammal və texnologiyalardır.

2. Müştərək sahibkarlıqda bazar səbəbləri böyük əhəmiyyət kəsb edir, belə ki, onlardan istehsal və satış imkanlarının genişləndirilməsi asılıdır.

3. Riskin bölünməsinə elmi-tədqiqat və araşdırmalar sahəsində, eləcə də böyük start investisiyaları tələb edən sahələrdə fəaliyyət göstərən firmalar müraciət edirlər, nəticəni isə qabaqcadan xəbər vermək çətindir.

Tərəfdaşlar iqtisadi inkişafın müxtəlif mərhələlərində dövləti təmsil etdikdə, onda onların məqsədləri bir qayda olaraq güclü surətdə fərqlənəcəkdir [19, 34].

Sənayeləşmiş ölkələrin şirkətləri ilə industrial əməkdaşlıq inkişaf etməkdə olan ölkələrin firmalarına məhsuldar qüvvələrin daha çox artırılmasına, idarəetmə, menecment və digər xüsusi biliklər sahəsində texnologiya, bacarıq və biliklərin əldə edilməsinə imkan verir. İnformasiya, kadr hazırlığı, məsləhət xidmətləri sahəsində çoxsaylı birgə müəssisələrin təşkili həm daxili və həm də xarici kapitalın

fəaliyyət şərtlərini asanlaşdırır.

Xərclərin azaldılması mühüm motivlərdən biridir. İnkişaf etməkdə olan bazarlarda Qərbdəki köhnəlmiş texnologiyaların uzunmüddətli istifadəsi ola bilər. İnkişaf etməkdə olan ölkələrdə istehsalın bəzi növləri üçün daha uyğun hüquqi hallar mövcuddur, bunun nəticəsi olaraq həmin birgə müəssisələr keçid iqtisadiyyatlı dövlətlərə istehsalın modernləşdirilməsi siyasətinin modelini ötürürlər.

Yaradılmış bazar sisteminə malik dövlətlərin tərəfdaşlarında müştərək müəssisələrin təşkilinin, yeni bazarların tədqiqatının və xərclərin azaldılmasının öz motivləri mövcuddur. Sənayeləşmiş ölkələrdə birgə biznes tərəfdaşları üçün əsas motiv yeni bazarlara çıxışdır. Milli və regional bazarların imkanlarının, bazarın və satış strukturlarının ayrı-ayrı xüsusiyyətlərinin uzunmüddətli istifadə imkanı xüsusi əhəmiyyət kəsb edir. Bazar perspektivlərinin qısamüddətli istifadəsi (həmin ana qıt məhsul və xidmətlərin reallaşdırılması) vacib sayılır.

İnkişaf etmiş ölkələrin şirkətləri üçün əsas motivasiya resursların əldə olunması müəyyən edilə bilər.

Buna görə də bizim tərəfimizdən iqtisadi inkişafın müxtəlif mərhələlərində olan dövlətlər üçün tərəfdaş maraqlarının ziddiyyətli cəhətlərinin ayrılması lazım gəlmişdir. Qəbul edən dövləti müştərək müəssisələr vasitəsilə qabaqcıl və keyfiyyətli texnologiyalara çıxış əldə etməyi nəzərdə tutur, inkişaf etmiş ölkələrin şirkətləri isə həyat dövrünün son mərhələsində olan, dünya bazarında yüksək gəlir gətirmək qabiliyyətində olmayan, lakin inkişaf etməkdə olan bazarlarda səmərəli olan texnologiyalardan istifadəni planlaşdırır.

Bütün bunlardan əlavə, biz dissertasiyada müştərək müəssisələrin xüsusi motivlərini müəyyən etmişik:

Milli motiv – qəbul edən dövlətin keçmiş vətəndaşları investorlardır.

Şəxsiyyət – səmimi başlanğıc müştərək müəssisənin təşkili qərarının əsas motividir.

Ekoloji - ekoloji zərərli istehsalın aradan qaldırılması probleminin həllidir.

Şirkətin nüfuzu və digər sosial-psixoloji amillərlə bağlı motivləri də ayırmaq

lazımdır.

Müştərək sahibkarlıqda məşğul olan firmalar, mənşə ölkəsindən asılı olmayaraq, fayda və üstünlükləri əldə etmək üçün bu metodu planlaşdırır. Firmalar üçün daha aktualı ondan ibarətdir ki, birgə sahibkarlıq tərəfdaşlara sərhəddən kənarda yerləşənlərdən hər birinə məqsədləri həyata keçirmək imkanı verir. (Şəkil 1.4).




**Şəkil 1.4. Müştərək müəssisələrin yaradılması zamanı rəhbərliyin motivasiyası**

Müştərək müəssisələrin yaradılması zamanı rəhbərliyin motivasiyasını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İnkişaf etmiş iqtisadiyyatlı ölkələr üçün:

- yeni bazarların mənimsənilməsi;

- istehsal xərclərinin azaldılması;

- yeni xammal mənbələrinin əldə edilməsi;

- innovasiya sferası.

2. Keçid iqtisadiyyatlı ölkələr üçün:

- yeni texnologiyalar;
- istehsala investisiyalar;
- istehsalın rəqabətqabiliyyətliliyi;
- vacib gəlirlər mənbəyinin alınması.

Hər iki qrup ölkələr üçün spesifik motivlər aşağıdakılardır:

-milli maraq;
- firmanın nüfuzu;
- şəxsiyyət;
- ekologiya.

Hər iki qrup ölkələr üçün ümumi motivlər aşağıdakılardır:

- satış şəbəkəsinin genişləndirilməsi;
- resurslara qənaət olunması;
- qapalı və ya çətin mənimsənilən bazarlara çıxış;
- nou-hau.

Müştərək müəssisələr dünyada istehsal və mübadilənin strukturunu dəyişir, dünya iqtisadiyyatının qloballaşma proseslərinin sürətləndirir. Firmalararası qarşılıqlı təsirin sürətlə artması – qloballaşmanın daha aydın göstəricisidir. Firmalar arasında əlaqələrin inkişafında əsas rolu beynəlxalq nüfuzlu şirkətlər oynayır. Hal-hazırda aparıcı beynəlxalq şirkətlərin hər hansı biri öz filial və ofislərinin geniş şəbəkəsini, müxtəlif xarakterli beynəlxalq əlaqələr və müqavilələri - birgə müəssisələri, konsorsiumları, satış və marketinq müqavilələrini, tədqiqat fəaliyyətini nəzərdə tutur. Araşdırmalar aşkar etməyə imkan verir ki, son illərdə müştərək sahibkarlıq prosesində orta və kiçik firmalar daha çox fəal iştirak edirlər [12, 14].

## *1.2. Beynəlxalq kooperasiya müştərək sahibkarlığın idarə edilməsi və inkişafının əsas amili kimi*

Müştərək sahibkarlığın əsasını, ilk növbədə, beynəlxalq əməkdaşlığın mühüm hissəsi sayılan kooperasiya təşkil edir.

Beynəlxalq kooperasiya sahibkarlığın idarə edilməsi və inkişafı şəraitinin formalaşmasında mühüm rol oynayan bazar iqtisadiyyatının vasitələrindən biridir. İstehsalın beynəlxalq kooperasiyası müxtəlif dövlətlərin işçilərinin əməyinin bir-birinə bağlı istehsal proseslərinin gündəlik qarşılıqlı təsirində birləşdirilən əmək bölgüsü formasını özündə ehtiva edir [33].

Dissertasiyada beynəlxalq kooperasiyanın istehlak və istehsala müsbət təsirinin əsas istiqamətlərinə aşağıdakılar aid edilmişdir:

- innovasiyaların (araşdırmanın, tədqiqatın, istehsalın, satışın, satışdan əvvəlki və satışdan sonrakı xidmətlərin) inteqrasiyası;
- innovasiyaların və rəqabətin dinamizminin artırılması, elmi-texniki tərəqqinin sürətləndirilməsi;
- investisiya və elmi-texniki xərclərin azaldılması, aralıq məhsul istehsalçısı şirkətlərinin məhsul və texnologiyalarının təzələnməsi müddətlərinin qısaldılması, cari istehsal xərclərinin azaldılması;
- müştərək sahibkarlıq fəaliyyətinin intensivləşdirilməsi, müqavilə və institutsional formaların (SC, konsernlər və s.) geniş seçimi;
- xarici kapitalın milli iqtisadiyyata cəlb olunmasının mümkün mənfi nəticələrinin nizamlanması, onun xammal sferasına müdaxiləsinin qarşısının alınması, kooperasiyanın gedişi zamanı yaradılan məhsulların rəqabətqabiliyyətliyinin artırılmasına yönəldilməsi.

Ədəbiyyatda ”istehsal kooperasiyası” termininin çoxsaylı təriflərinə rast gəlinir. Geniş mənada bu, əməkdaşlıq fəaliyyətini təmin edən elmi-texniki əlaqələri və fəaliyyəti birləşdirir. Dar mənada, istehsal kooperasiyası sırf istehsal prosesi kimi qəbul edilir. Bizim fikrimizcə, bu şərhlər arasında fərq mürəkkəbliyi və digər proseslərlə inteqrasiya oluna bilməsi ilə xarakterizə edilən xüsusi iqtisadi hadisə kimi, istehsal kooperasiyasının sərhədlərinin müəyyən edilməsindəki çətinliklə izah olunur.

İstehsal kooperasiyasında iki qarşılıqlı əlaqədar olan aspektləri dərk etmək vacibdir. Birincisi, bu istehsal prosesidir, çünki vəzifələrinin məhdudlaşdırılmasına baxmayaraq, onun vəzifələri məhsul istehsalına yönəlmişdir. İkincisi, bu məhsul və xidmətlərin tərəfdaşları arasında mübadilədir. Nəticədə, istehsal kooperasiyası həm istehsal prosesini, həm də istehsal prosesi üçün tələb olunan mal və xidmətlərin mübadiləsini nəzərdə tutur.

Beynəlxalq istehsal kooperasiyasının təsnifatı onun əsasında qoyulmuş metodoloji əsaslardan asılı olaraq aparılır. Beynəlxalq şirkətlərin xüsusilə, Ticarət və İnkişaf üzrə Birləşmiş Millətlər Təşkilatı Konfransının (UNCTAD), Sənayenin İnkişafı üzrə Birləşmiş Millətlərin Təşkilatının (UNIDO) və BMT-nin Avropa İqtisadi Komissiyasının (AİK) mütəxəssisləri tərəfindən aparılan sistemləşdirilmələr bir-birindən xeyli fərqlənir (Cədvəl 1.1).

**Cədvəl 1.1. Beynəlxalq təşkilatların ekspertləri tərəfindən beynəlxalq istehsal kooperasiyası formalarının müəyyən edilməsinə əsas yanaşmalar**

| Beynəlxalq təşkilat | Nəzəri yanaşma | Reallaşdırılma yolları |
|---|---|---|
| 1 | 2 | 3 |
| Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (BMT AİK) | - danışıqlar aparılması, müvafiq siyasi və texniki köməyin qurulması yolu ilə iqtisadi əməkdaşlığın inkişafına yardım | - ixtisaslaşma əsasında müştərək istehsal;<br>- podrat kooperasiyası;<br>-zavod və ya istehsal xətlərində istehsal olunan məhsul ödənişi ilə təchizat;<br>- məhsul ödənişli lisenziya ilə buraxılan lisenziyanın təqdim edilməsi;<br>- müştərək müəssisələrin təşkili. |
| Sənayenin inkişafı üzrə BMT(UNİDO) | -məhsuldarlığın artırılması vasitəsilə yoxsulluqla mübarizə. | - sadə və mürəkkəb ixtisaslaşma;<br>- müqavilə işlərinin yerinə yetirilməsi;<br>-maşınların, avadanlıqların və ya bütöv zavodun kreditə qoyulması(texniki yardım göstərməklə birlikdə);<br>- müştərək müəssisələrin təşkili. |
| Ticarət və inkişaf üzrə BMT-nin Konfransı(UNKTAD) | -qərar və tövsiyələr. | - müştərək istehsal, istehsal vəzifələrinin ixtisaslaşması;<br>- tərəfdaşın istehsal gücünün tamanlanması;<br>- podrat kooperasiyası ;<br>- lisenziya təchizatı üzrə müqavilə;<br>- müştərək müəssisələrin yaradılması . |

Beynəlxalq əməkdaşlıq çərçivəsində beynəlxalq istehsal kooperasiyası dedikdə, aşağıdakı şərtlərə sözsüz əməl etməklə həyata keçirilən müştərək fəaliyyət başa düşülür:

- müxtəlif ölkələrin şirkətləri istehsal kooperasiyasının bilavasitə subyektləridir;
- kooperativ müqavilələr əsasında istehsal vəzifələrinin bölgüsü;
- kooperativ proqramlar çərçivəsində alqı-satqı müqaviləsinin icrası nəticəsi kimi deyil, ikitərəfli və ya birtərəfli şəkildə mal və xidmətlərlə təchizatı;
- kooperasiyanın əsas obyekti - hazır məhsul, komponentləri və ya digər qismən məhsul və texnologiyalar;
- tərəfdaşlar arasında maliyyə münasibətlərinin uzunmüddətliliyi, sabitliyi və müntəzəmliyi;
- müxtəlif ölkələrin tərəfdaşlarının təsərrüfat fəaliyyətinin koordinasiyası. [18, 33, 36]

Nəticədə tərəfdaşlar arasında istehsal kooperasiyası kimi bu əməkdaşlığı xarakterizə edən uzunmüddətli elmi-texniki və təşkilati əlaqələr meydana çıxır.

Beynəlxalq kooperasiyanın inkişafına ayrı-ayrı dövlətlərin onlardan kənarda istehsal elementlərinin hərəkəti öz töhfəsini verir.

Dünyada resursların qeyri-bərabər paylanması, dövlətlərin coğrafi mövqeyinə, əhalisinin sayına, texnoloji potensialının ölçüsünə, vətəndaşların və işçi qüvvəsinin təhsilinə görə fərqlər səmərəli beynəlxalq əmək bölgüsünün inkişafı üçün ehtiyacı müəyyən edir.

Beynəlmiləlləşmənin gedişində həm tədavül və mübadilə sahəsində, həm də məhsul istehsalı sferasında firmalar arasında əməkdaşlıq inkişaf edir.

Firmalar arasında beynəlxalq kooperasiyası müxtəlif ölkələrin müəssisələrinin istehsal sahələrində əlaqələndirilməsi və ya ümumi fəaliyyəti məqsədilə birgə iş müqaviləsi əsasında könüllü, qurulmuş birgə fəaliyyətidir. Tərəfdaşlar arasında ticarət əməliyyatlarından fərqli olaraq, bu variantda hər iki tərəf sahib olduğu bilik, bacarıq və ya kapitaldan istifadə əsasında müəyyən uzunmüddətli münasibətlər qurulur.

Firmalararası kooperasiyanın əsası yalnız müştərək sahibkarlıq miqyasında tərəfdaşların ümumi və şəxsi məqsədlərin əldə edilə bilməsinin tanınması hesab olunur. Uzunmüddətli kooperasiya sazişinin əsası qarşılıqlı fayda alınması və dəyən zərərin ödənilməsi üzrə öhdəliklərin yerinə yetirilməsi də ola bilər.

İstehsal kooperasiyasını aşağıdakılar formalaşdırır:

- texnologiyaların mübadiləsi haqqında müqavilə əsasında və elmi tədqiqatlar sahəsində birgə iş ilə sıx bağlı olan lisenziyalaşdırma sahəsində kooperasiya;
- istehsalı sahəsində - onun bütün mərhələlərində kooperasiya;
- məsləhət, idarəetmə və texniki dəstək sahəsində kooperasiya;
- müştərək sahibkarlıq formasında kooperasiya.

Müştərək müəssisələr, praktikada, kooperasiyanın müxtəlif formalarından yaradılır. Birgə müəssisələrin yaradılması, əməkdaşlıq müqavilələrindən əlavə, iqtisadi kooperasiyanı; ETTKİ sahəsində birgə işi özündə ehtiva edir və istehsalın başqa ölkəyə transferi sahəsində müqavilə tez-tez birgə sənaye birliklərinin təşkilatçılığı ilə birləşdirilir [27, 32].

Dünya iqtisadiyyatının qloballaşması şəraitində beynəlxalq biznesin və müştərək sahibkarlığın müxtəlif formaları mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, milli və xarici iqtisadi ədəbiyyatda birgə müəssisələrin iki forması müəyyən edilir:

- səhmdar (paylı) birgə müəssisələr;
- kontrakt (müqavilə) birgə müəssisələri.

Səhmdar (paylı) birgə müəssisəsi adətən korporativ təşkilat və ya hər bir tərəfdaşının kapitalın (səhmlər) müəyyən payına sahib olduğu məhdud məsuliyyətli cəmiyyət formasında yaradılır. Birgə müəssisənin bu formasına nümunə kimi "Nummi" amerikan-yapon birgə müəssisəsini, "Autolatina" american-alman birgə müəssisəsini, "Ladenso" rus-fin birgə müəssisəsini göstərə bilərik.

Kontrakt (müqavilə) birgə müəssisələri birgə fəaliyyətin həyata keçirilməsi üçün yeni şirkətin yaradılmasını nəzərdə tutmur. Əslində, bu formada onların

hüquqi və vergi statusu təyinatına malik bütün birgə müəssisələrin tam xüsusiyyətləri yoxdur. Kontrakt (müqavilə) müştərək müəssisələrin çərçivəsində müştərək müəssisələr üzrə tərəflər arasında bütün münasibətlər müqavilələr yolu ilə tənzimlənir. Müştərək müəssisələrin kontrakt forması ən çox iqtisadi və hüquqi sistemlərinin qanunla istehsal vasitələri üzərində xüsusi mülkiyyəti məhdudlaşdıran ölkələrdə istifadə olunur. Lakin, müştərək müəssisələrin bu forması inkişaf etmiş ölkələrdən tərəfdaşlar arasında istifadə olunur.

Müştərək müəssisələrin kontrakt forması nəzərdə tutur ki, müxtəlif ölkələrdən gələn tərəflərin müqavilə obyekti mənfəətdə, məhsulların alınmasında, faydalı qazıntıların işlənməsində və s. iştirak hüququ qarşılığında maliyyə və maddi resursların təmin olunmasıdır. Bəzən də, birgə müəssisələrin bu şəkildə tərəfdaşlarından biri kimi tanınmış firma, birgə müəssisəyə yalnız ticari markasını və şirkətin adını (bəzi hallarda, yüksək ixtisaslı imenecment və nou-hau) təqdim edir. Restoran və mehmanxana biznesində müştərək sahibkarlıın kontrakt forması kifayət qədər geniş yayılmışdır.

Apardığımız araşdırmalar göstərir ki, müştərək müəssisələrin formalarının bu təsnifatı ayrı-ayrı ölkələr üçün istisna təşkil edir. Xüsusilə, Çin Xalq Respublikası (ÇXR) üçün birgə müəssisələrin üç forması mövcuddur:

- paylı birgə müəssisələr;
- səhmdar birgə müəssisələr;
- kontract (müqavilə) birgə müəssisələri.

Müştərək müəssisələrin bu üç formaları arasında aşağıdakı fərqlər mövcuddur:

- əgər paylı birgə müəssisədə tərəfdaşlar arasında mənfəət və zərərlər onların iştirak payına mütənasib olaraq bölüşdürülür, kontrakt müəssisədə isə onun fəaliyyəti ilə bağlı bütün məsələlər kontrakt şərtləri ilə müəyyən edilir və bir qayda olaraq tərəfdaşların investisiya qoyuluşu payından asılı deyil;
- paylı müştərək müəssisələrdə hər iki iştirakçı nizamnamə kapitalının müəyyən hissəsini pul şəklində qoyurlar, kontrakt müəssisələrdə Çin iştirakçısı bir qayda olaraq, öz payını torpaq, binalar, qurğular, kadrlardan istifadə hüququna,

xarici iştirakçı isə texnologiyaya, avadanlığa və pul vəsaitlərinə qoyurlar;

- kontrakt müştərək müəssisələrdə gəlirlər müqavilə ilə bölüşdürülür və hər bir tərəf vergini müstəqil ödəyir.

Bəzi ekspertlərin fikrincə, kontrakt müştərək müəssisələri üzrə müqavilələrinin xüsusi növ müxtəlifliyi “idarəetmə” kontraktlarıdır. Dissertasiyada, biz belə bir fikri dəstəkləyirik ki, “idarəetmə” kontraktları tez-tez kontrakt və paylı birgə müəssisələrin formalaşmasını qabaqcadan müəyyən edir.

Kontrakt müştərək müəssisələrin əksəriyyəti fərdi sifarişlər üzrə işləyən və sadə əməktutumlu məhsullar üzrə ixtisaslaşmış sadə subpodratçıların rolunu yerinə yetirirlər. Tələb olunan komponentlərin idxala oriyentasiyası səbəbindən Çin Xalq Respublikasında (ÇXR) kontrakt müəssisələrin adətən milli elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin (ETTKİ) nəticələrinə ehtiyacı yoxdur və əlaqəli istehsalların inkişafı üçün orada stimul yaratmır [11].

Çin Xalq Respublikasında (ÇXR) birgə müəssisələrin ən geniş yayılmış forması bir sıra üstünlüklərə malik olan paylı şirkətlərdir. Belə ki, onlar layihənin əsas uğuruna xarici tərəfdaşın maraqlılığının yüksək dərəcəsini nəzərdə tutur. Birgə müəssisənin bu cür formalaşması mexanizminin özü xarici tərəfdaşın fəaliyyətinə nəzarət etməyə imkan verir.

Paylı və müqavilə müəssisələrinin üstünlüklərini özündə birləşdirən təşkilatın daha mürəkkəb forması, xarici iştirakçıya malik səhmdar şirkətlər ola bilər. Səhmdar forma zəruri maliyyə resurslarının sürətli toplanmasını təmin edir, və buna görə də paylı müştərək müəssisələrdən fərqli olaraq xarici investor (müqavilə müştərək müəssisələr kimi) yalnız texnologiya şəklində kömək edə bilər. Bu halda, paylı müştərək müəssisəyə xas olan kapitalının ölçüsünə görə mənfəətdə birgə iştirak prinsipi mümkün qədər bu formada həyata keçirilir.

Nəticədə, birgə müəssisələrdə iştirak edən bütün tərəfdaşların xərclərinin səmərəliliyi birgə müəssisənin formalaşması və onun fəaliyyətinin idarə olunmasında onların praktiki iştirakından asılıdır.

Müştərək müəssisənin yaradılmasında əsas məqsədi müştərək sahibkarlıq üzrə bir tərəfdaşın zəif tərəflərinin digər güclü tərəflərin hesabına kompensasiyasını

təmin etmək təcrübəsinə əsaslanması nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, beynəlxalq müştərək müəssisə anlayışı, adətən, birgə iki və ya daha ölkənin rezidentləri sayılan iki və ya daha çox sahiblərin (hüquqi və / və ya fiziki) birgə mülkiyyətində yerləşən şirkətlərin (firmaların) tanınması üçün istifadə olunur. Əslində, beynəlxalq müştərək sahibkarlıq - yerli və xarici şirkətlərin - müştərək müəssisələrin təsisçilərinin və ya sahiblərinin resursları və güclərinin cəmindən törəmədir.

Demək kifayətdir ki, bəzən beynəlxalq sənaye əməkdaşlığı haqqında saziş müştərək sahibkarlığın daha mürəkkəb formalarının fəallaşdırılması üçün özünəməxsus tramplindir. Bundan başqa, beynəlxalq sənaye əməkdaşlığı haqqında sazişlər vasitəsilə inkişaf tapan birgə müəssisələr, bir qayda olaraq, böyük perspektivlərə malikdir.

Nəticədə, müştərək sahibkarlıqda iştirak edən bütün tərəfdaşların xərclərinin səmərəliliyi müştərək müəssisənin formalaşması və onun fəaliyyətinin idarə olunmasında onların praktiki iştirakından asılıdır.

### *1.3. Transmilli korporasiyalar (TMK) – müştərək müəssisələrin formalaşmasının təkmil strukturu kimi*

Ticarət və İnkişaf üzrə BMT Konfransının (UNCTAD) hər il nəşr etdirdiyi “Dünya investisiyaları haqqında məruzə”yə əsasən transmilli korporasiya (TMK) - istənilən təşkilati-hüquqi formada təsis edilən, ana və nəzarət edilən xarici şirkətlərdən ibarət olmaqla baza ölkəsində və qəbul edən dövlət və ərazilərdə yerləşdirilmiş müəssisədir. TMK ana şirkətin səsvermə hüququna malik səhmlərində ən azı 10%-lik paya və ya korporativ olmayan mülkiyyət formalarının nizamnamə kapitalında eyni xüsusi çəkiyə bərabər olmalıdır.

Bəzi ekspertlərin fikrincə, transmilli korporasiya dedikdə, birbaşa xarici investisiyaları reallaşdıran və yaxud birdən çox ölkələrdə əlavə dəyərin alınmasında nəzarət mexanizmlərinin sahib olan müəssisə başa düşülür [37].

Digər bir mənbədə, transmilli korporasiya istehsal, hasilat, xidmət və ya maliyyə təyinatlı iqtisadi müəssisələr kimi təqdim edilir və onların bir ölkədə mənzil qərargahı olmaqla, bir və ya daha çox xarici ölkədə bizneslə məşğul olması diqqətə çatdırılır [38].

Bəzi mütəxəssislərin fikrincə, TMK – səhmləri saxlamaq, idarəetməyə nəzarət etmək və ya müqavilə vasitəsilə və iqtisadi birlikdə təmsil olunmaqla əlaqədar müxtəlif millətlərdən olan şirkətlər qrupudur[35].

Beynəlxalq səviyyəli transmilli korporasiyalar üşün BMT-nin Hökumətlərarası komissiyası çərçivəsində "Transmilli korporasiyaların davranış məcəlləsi" işlənib hazırlanıb. Bu zaman TMK mənşəcə yaranma ölkəsindən və xüsusi, ictimai və ya qarışıq müəssisələr də daxil olmaqla mülkiyyət, hüquqi formasından və fəaliyyət sferasından asılı olmayaraq iki və ya daha çox ofislərə malik müəssisə kimi təqdim olunur. Həmin ofislər konkret qərar qəbuletmə sisteminə uyğun şəkildə fəaliyyət göstərirlər ki, bu da qərarların qəbul edilməsi ilə bağlı bir və ya bir neçə mərkəzin vasitəsilə ardıcıl siyasət qurmağa və ümumi strategiya reallaşdırmağa imkan verir. Eyni zamanda həmin ofislərin arasında elə mülkiyyət və yaxud başqa münasibətlərlə bağlı əlaqə yaradılır ki, onlardan biri və ya bir neçəsi başqa birisinin fəaliyyətlərinə xeyli təsir edə bilir.

Onu da qeyd edək ki, indinin özündə də qərb və milli iqtisadi ədəbiyyatda transmilli korporasiyaların təbiətini müəyyən etmək sahəsində vahid yanaşmalar işlənib hazırlanmamışdır.

Belə bir fikirlə razılaşmaq olar ki, transmilli korporasiya - öz fəaliyyətində beynəlxalq yanaşmanı tətbiq edən və baza ölkəsində vahid qərar qəbulu mərkəzi və onun başqa ölkələrdəki filialları ilə müştərək transmilli sənaye, kommersiya və maliyyə kompleklərsinin formalaşmasını nəzərdə tutan kompleksdir [9].

TMK-nın formalaşmasında və inkişafında xeyli müxtəlif səbəblər mövcuddur, lakin onların hamısı bu və ya digər dərəcədə aşağıdakılarla bağlıdır [20]:

- bazarın qeyri təkmilliyi ilə;

- beynəlxalq ticarətin inkişafı yolunda məhdudiyyətlərin mövcudluğu ilə;

-istehsalçıların güclü inhisar hakimiyyəti ilə;

- valyuta nəzarəti ilə;

- əhəmiyyətli nəqliyyat xərcləri ilə;

- müxtəlif ölkələrin vergi qanunvericiliyində mövcud olan fərqlər ilə.

Transmilli korporasiyaların keçdiyi inkişaf mərhələlərini şərti olaraq aşağıdakı beş nəsildə qruplaşdırmaq olar.

1) 1918-ci ilə qədər olan ilkin dövr: Asiya, Afrika və Latın Amerikasının müstəmləkə ölkələrində əsasən xammal resursları işlənir və hasil olunur, eləcə də müstəmləkə sahibləri ölkələri onların emalını həyata keçirir. TMK kartel və sindikatlar formasında təmsil olunurdu.

2) 1918-1939-cu illəri əhatə edən dövr: Avropanın, Amerikanın aparıcı ölkələrini və Yaponiya öz hərbi ehtiyaclarını ödəmək məqsədilə silah və hərbi texnika istehsal edirdi . Bu TMK-lar trest kimi formalaşmışdır.

3) 1945-1960-cı illəri əhatə edən dövr: elm və sənayenin ən yeni sahələri (nüvə enerjisi, elektronika istehsalı, aerokosmik, cihazqayırma və s.) elmi-texniki nailiyyətlərə əsaslanır. TMK konsern və konqlomeratlarla təmsil olunurdu.

4) 1970-1980-ci illəri əhatə edən dövr: bu müddət ərzində birləşmə və qovuşma prosesi sürətləndi. Bununla da kapital və istehsal daha uğurla inkişaf etmiş iri beynəlxalq biznesdə - TMK-da təmərküzləşdi.

5) XXI əsrin əvvəlində, xüsusilə də Avropada (AB), Amerikada (NAFTA və MERCOSUR), Asiyada (ASEAN, APEC) regional iqtisadi inteqrasiya prosesinin sürətləndirilməsi baxımından inkişaf etməkdədir. TMK-lara müasir elm və innovasiya biznesinə kömək xasdır ki, bu da onları yeni ideya və konsepsiyaların əsas generatoru edir.

Onu da qeyd edək ki, qloballaşma müddətində TMK-nın təkamülü baş vermişdir. Əgər ilk vaxtlarda onların fəaliyyəti əyalət ölkələrinin xammal resurslarının işlənməsi və hərbi-texniki məhsulların istehsalı ilə bağlı idisə, dünya müstəvisində son onilliklətdə bazar və rəqabət proseslərinin planetar görünüşü ilə qlobal TMK-lar peyda oldular.

Keçən əsrin ikinci yarısından etibarən dünyada TMK-nın intensiv inkişafına səmərəlilik fəaliyyətinin aşağıdakı mənbələri kömək etməyə başladı:

- təbii ehtiyatlara, kapitala və Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin (ETTKİ) nəticələrinə sahibliyin və çıxışın üstünlükləri;

- ayrı-ayrı xammal sahələrinə üfüqi diversifikasiya və ya bu və ya digər hallarda TMK-nın iqtisadi və maliyyə sabitliklərini təmin edən bir sahə çərçivəsində texnoloji prinsip üzrə şaquli diversifikasiya;

- ayrı-ayrı ölkələr üzrə onların daxili bazarlarının tutumunu, iqtisadi artım sürətlərini, qiymətləri, iqtisadi resurslara çıxış və siyasi sabitlik nəzərə alınmaqla, baş (ana) şirkətin müəssisələrinin optimal bölgü imkanları;

- xarici filialların yerləşdirildiyi ölkələrdə borc vəsaitləri və onun korporasiya üçün əlverişli şəraitlətdə və yerlərdə tətbiqi nəzərə alınmaqla, TMK-nın bütün sistemi çərçivəsində kapitalın qısa müddətdə yığılma reallığı;

- TMK-nın xarici filialının məhsul istehlakçılarına bilavasitə yaxınlığı və yerli bazarların gələcək inkişafı və qəbul edən ölkənin oxşar şirkətlərinin rəqabət potensialı barədə etibarlı məlumat əldə etmək imkanı;

- ayrı-ayrı ölkələrdə hökumətin xarici siyasətindən TMK-nın maraqlarına uyğun istifadə imkanlarınının təmin edilməsi;

- TMK-dan qalma köhnəlmiş texnologiyaları və məhsulları xarici filiallara "atmaqla" və TMK şöbələrindən qalma resursları baza ölkələrindəki ana şirkətin yeni texnologiyalarının işlənməsinə səfərbər edərək, onların istehsal ömrünün uzadılması imkanlarının çoxalması;

- birbaşa investisiyalar hesabına bu və ya digər ölkənin bazarına öz mallarını gətirmək yönümündə ixrac maneələrinin aradan qaldırılması imkanları;

- əksər dünya ölkələrində maliyyə vəsaitlərindən geniş istifadə;

- ayrı-ayrı ölkələrdə mal, xidmət, valyuta və maliyyə bazarlarının vəziyyəti barədə fasiləsiz məlumatlandırmanın aparılması, bu isə maksimum mənfəət almaqdan ötrü kapital axınını əlverişli şəraitə malik ölkələrə birbaşa şəkildə tez yönəltməyə şərait yaradır;

- TMK rəhbərliyinin daim diqqət və nəzarəti altında yerləşən və davamlı şəkildə təkmilləşdirilən bütöv korporasiyanın optimal təşkilati strukturu [24].

Transmilli biznesin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, TMK-lar dünya bazarının ehtiyaclarını nəzərə almaq və öz məhsullarının istehsalına qədər xeyli dərəcədə tələb formalaşdırmaq imkanına malikdirlər. Belə ki, üstün inhisar mənfəətinin reallaşdırılması yalnız istehsal ölçülərinin bu məhsullara mövcud ictimai tələbata və artıq formalaşmış istehsal gücünə uyğun olaraq şüurlu məhdudlaşdırılması zamanı mümkündür, onda korporasiyaların yaratdığı bu çərçivələr TMK-ların özlərinin mövcudluğu üçün zəruri şərtə çevriləcəkdir.

TMK investisiya siyasətini reallaşdırır, yeni istehsal və idarəetmə texnologiyaları gətirir, ÜDM-i artırır, ixrac gəlirlərini artırılmaq və ya idxalı azaltmaqla tədiyə balansına müsbət təsir göstərir. Bütün bu dəyişikliklər ölkə iqtisadiyyatını gücləndirir, onun vətəndaşlarının yaşayış səviyyəsini yüksəldir.

Qloballaşmanın və TMK-nın inkişafının əsas təhdidləri aşağıdakılardır:

- bazarın inhisarlaşması;
- kiçik dövlətlərin suverenliyinə təhlükə;
- ətraf mühitə təhlükə və digər təhdidlər.

TMK-nın inkişafının mərhələli təhlili belə bir nəticəyə gətirib çıxarır ki, transmilli korporasiyalar dünya iqtisadiyyatının qloballaşmaya doğru irəliləməsini sürətləndirir, bu isə müasir şəraitdə onun xarakterinin əhəmiyyətli dərəcədə dəyişiminə səbəb olur. Artıq XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının yalnız dörddə biri sərbəst bazar şəraitində, dörddə üçü isə özünəməxsus planlı sistemdə fəaliyyət göstərir ki, burada da TMK daxilində azad bazar qanunları işləmir və daxili (transfer) qiymətlər korporasiyaların özləri tərəfindən müəyyən edilir. Nəticədə, özündə planlaşdırma və bazar prinsiplərini birləşdirən konvergent iqtisadi sistemə keçid baş verir.

İnamla demək olar ki, TMK-lar iqtisadi gücünu artıraraq və beynəlxalq iqtisadi əlaqələrə və bütövlükdə dünya iqtisadiyyatına daha böyük təsir göstərərək dünya təsərrüfatçılıq sistemində ən mühüm iqtisadi subyektlərə çevrilməkdədirlər.

UNCTAD metodologiyasına görə, ümumilikdə TMK-nın iqtisadi fəaliyyəti və ayrılıqda onun xarici komponenti aşağıdakı əsas parametrləri ilə təsvir olunur:

FA – TMK-nın xarici aktivləri; TA – TMK-nın aktivləri;

FS – TMK-nın xarici satış həcmi; TS – TMK-nın satış həcmi;

FE – TMK-da xarici işçilərin sayı; TE – TMK-da işçilərin sayı;

FAF – TMK-nın xarici filiallarının sayı; TAF – dünyada TMK filiallarının ümumi sayı.

Bu kəmiyyətlər əsasında TMK-nın xaricə yayılmasını xarakterizə edən göstəricilər hesablanmışdır:

1. TMK-nın xarici aktivlik miqyasını və dərəcəsini qiymətləndirmək üçün UNCTAD tərəfindən hazırlanmış şirkətlərin transmilliləşmə indeksi - (TNI transnationality index).

TNI = (FA / TA + FS / TS + FE / TE) / 3 • 100%.

Transmilliləşmə indeksi şirkətin xarici əməliyyatlarının nə qədər əhəmiyyətli olduğunu və bu və ya digər TMK üçün xarici bazarlarda xarici filiallarının nə dərəcədə əhəmiyyətli olduğunu səciyyələndirir. İndeks nə qədər böyük olarsa, şirkət üçün onun xarici filiallarının aktivliyi bir o qədər yüksək olar

2. Beynəlmiləlləşmə indeksi (II - beynəlmiləlləşmə indeksi) xarici filialların sayını bütün filialların sayına bölməklə hesablanır:

II = (FAF / TAF) • 100%.

3. Filial şəbəkəsinin genişliyi indeksi (NSI - şəbəkənin genişiyi indeksi):

NSI = N / (N * -1) • 100%,

burada N * - hər hansı XBİ alan ölkələrin sayı və N - TMK-nın filialları olduğu ölkələrin sayı.

UNCTAD-ın tərəfdar çıxdığı dünyanın ən iri qeyri-maliyyə TMK-sının reytinqinin tərtibi metodikası xarici aktivlərin həcmi üzrə şirkətlərin ranjirə olunmasına əsaslanır. Hazırda dünyanın 100 ən iri TMK-sı ümumi xarici aktivlərin 12%-nə, ümumi xarici satışların 16%-nə və işçi qüvvəsinin 14%-nə nəzarət edir.

TMK-ların sahəvi mənsubiyyəti onların aktivlərinin həcminə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə, yerli və xarici aktivlər arasında ardıcıl olaraq ikiyə bölünməyə əsaslanan UNCTAD-ın reytinqlərin tərtibi üzrə mövcud metodikası ona gətirib çıxarır ki, onların liderləri xarici mülkiyyətində iri maddi aktivlərə – təbii ehtiyatlara, maşınqayırma istehsalına, infrastruktur obyektlərinə və

s. hüququ olan TMK-nın kapital tutumlu sahələri olurlar. Bu, şirkətlərin sahə qrupları tərəfindən həyata keçirilən hesablamalar ilə sübut edilir.

Şirkətin ölkə mənsubiyyəti nəzərə alınmaqla transmilli indeksin təhlilindən belə nəticəyə gəlmək olar ki, inkişaf etmiş ölkələrin (məsələn, Hollandiya, İsveç, Finlandiya, İsveçrə) kiçik ölçülü TMK-ları öz fəaliyyətlərini ana şirkətin baza ölkəsindən çox xarici ölkələrdə həyata keçirirlər. Belə ki, milli bazarların məhdud imkanları onları ABŞ, Yaponiya, Almaniya kimi böyük dövlətlərin transmilliləşmə indeksi orta cəviyyədən aşağı olan TMK-larından fərqli yeni bazarlar axtarmağa məcbur etdi [35].

Dünya təsərrüfatını mahiyyətcə, transmilli istehsala çevirməklə TMK-lar onun tərəqqisini müxtəlif istiqamətlər üzrə: texniki səviyyəsinin, məhsulun keyfiyyətinin və istehsal səmərəliliyinin artırılmasından şirkətlərin menecmenti və idarə olunmasının təkmilləşdirilməsinə qədər xeyli dərəcədə şərtləndirdi. Törəmə şirkətləri və filialları vasitəsilə dünyanın bir çox ölkələrində onlar ana şirkətlər tərəfindən yaradılmış vahid elmi-istehsal və maliyyə strategiyası çərçivəsində fəaliyyət göstərirlər, dünya iqtisadi sisteminin dinamik inkişafını təmin edən, nəhəng elmi-istehsal və bazar potensialına malik olurlar [20].

TMK-nı mərhələ-mərhələ təhlil etmək dünya iqtisadiyyatında aşağıdakı meyllərini müəyyənləşdirməyə imkan verir:

• dünya iqtisadiyyatının əsas oyunçularına çevrilən ən iri korporasiyaların sürətli inkişafını (o cümlədən TMK-nın filial şəbəkəsinin artımı hesabına);

• dünya fond bazarının inkişafı və strateji ittifaq mexanizminin istifadəsi vasitəsilə TMK-ların və onların öz məhsullarını ana ölkəyə "bağlılığı" dərəcəsinin azaldılmasını;

• kapitalın təmərküzləşdirilməsini, bazar iqtisadiyyatı şəraitində o, istehsal xərclərinin azaldılmasını, ETTKİ-nin daha yaxşı həyata keçirilməsi imkanını, səmərəli reklamı, əlavə məsrəflərin və digər xərclərin minimuma endirilməsini təmin etməklə rəqabət mübarizəsində sağ qalmaq amili sayılır;

• iqtisadiyyatın beynəlmiləlləşməsinin və dünya bazarının inkişafının nəticəsi kimi TMK-nın formalaşmasını və inkişafını;

• kapitalın transmillliləşməsi bütün müasir iqtisadiyyatın institusional inkişafının xarakterik xüsusiyyətinə çevrilir.

Beləliklə, TMK dedikdə, xüsusən dəhazırkı qlobal maliyyə böhranı şəraitində, dövlət və beynəlxalq nəzarət tərəfindən ayrıca diqqət tələb edən dünya təsərrüfat əlaqələri sistemində olduqca mürəkkəb və daim inkişaf edən hadisə başa düşülməlidir.

# FƏSIL 2. MÜŞTƏRƏK SAHİBKARLIĞIN MÜASİR VƏZİYYƏTİNİN, İNKİŞAF MEYLLƏRİNİN VƏ İDARƏ EDİLMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## *2.1. Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti və inkişaf meylləri*

Azərbaycanda sahibkarlığı inkişaf etdirmək dövlətin iqtisadi siyasətində vacib şərtlərdən biridir. Təhlil olunan dövrdə bu istiqamətdə dövlət-sahibkar münasibətlərini inkişaf etdirmək, dövlətin tənzimlənmə sistemini, biznes mühiti ilə bağlı qanunvericiliyi və inzibati prosedurları təkmilləşdirmək, regionlarda sahibkarlığı genişləndirmək, sahibkarlığı stimullaşdırma mexanizmlərini daha da yaxşılaşdırmaq yönümündə proqram xarakterli tədbirlər reallaşdırılmışdır.

Həyata keçirilmiş islahatların nəticəsi olaraq ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 2015-ci ildə 81,2 faizə, məşğulluqda 75 faizə, vergi daxilolmalarında 68,9 faizə çatmışdır. Aqrar sahədə, sənayedə, tikintidə, nəqliyyatda, rabitədə və digər istehsalat və xidmət sahələrində qeyri-dövlət sektorunun xüsusi çəkisi 78,8-99,8 faiz civarında olmuşdur [2, s. 256, 32].

Son illərdə respublikada hüquqi şəxslərin sayı artaraq, 2015-ci ildə 6266 vahid yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs qeydiyyata alınmış, onların sayı artaraq bütövlükdə 100 min 325 vahid olmuşdur (Cədvəl 2.1).

İqtisadiyyatın bütün sahələrində yeni fəaliyyətə başlamış sahibkarlıq subyektləri artmaqdadır. Ölkədə yeni müəssisələrin 53,8 faizi Bakının, 46,2 faizi isə digər bölgələrin payına düşür.

2015-cü ildə 60 min 46 vahid fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki şəxs qeydiyyata alınmışdır. Respublikada fəaliyyət göstərən fiziki şəxslərin ümumi sayı xeyli artaraq 2016-cı ilin əvvəlinə 577 minə bərabər olmuşdur.

Bütövlükdə, ölkə üzrə sahibkarlıq subyektlərinin bölgüsünü təhlil etdikdə, aydın olur ki, onların 12,8 faizi hüquqi şəxslərin, 88,2 faizi isə fiziki şəxslərin payına düşür.

*Cədvəl 2.1*

**Azərbaycanda fəaliyyətdə olan sahibkarlıq subyektləri və onların quruluşu**

| | Sahibkarlıq subyektləri, cəmi | hüquqi şəxslər | | fiziki şəxslər | |
|---|---|---|---|---|---|
| | | sayı | faizlə | sayı | faizlə |
| 2005 | 279457 | 70287 | 25,2 | 209170 | 74,8 |
| 2010 | 400349 | 93416 | 23,3 | 306933 | 76,7 |
| 2015 | 677231 | 100325 | 12,8 | 576906 | 88,2 |
| 2015-ci il 2005-ci ilə nisb. %-lə | 242,3 | 142,7 | | 275,8 | |

Mənbə: Müstəqil Azərbaycan – 25. Bakı, 2016, 642s. s. 564-570.

Bütövlükdə, dövlət-sahibkar münasibətlərini inkişaf etdirmək, sahibkarlıqda dövlət tənzimlənmə sistemini təkmilləşdirmək, inzibati maneələri aradan qaldırmaq yönümündə əldə edilən uğurları məqbul saymaq olar. Sahibkarlıqda məsləhət, informasiya təminatını gücləndirmək və işgüzar əlaqələri inkişaf etdirmək yönümündə müntəzəm tədbirlərin davamlılığı təmin olunmuşdur.

Tədqiqatlardan aydın olur ki, qlobal maliyyə böhranının bəzi fəsadlarına rəğmən, hazırda ölkəmizdə əlverişli investisiya mühiti mövcuddur. Azərbaycanda həm yerli, həm də xarici investorların sərmayələri qorunur. Təsadüfi deyildir ki, adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan uzun illərdir ki, MDB məkanında birinci yerdədir. Statistik məlumatların təhlili göstərir ki, 2004-2015-ci illər ərzində ölkədə ÜDM istehsalı təxminən 3 dəfə artmış, iqtisadiyyata 169,4 mlrd. manat və ya 202,9 mlrd. dollar həcmində sərmayə qoyulmuşdur. Təkcə 2015-ci ildə ölkə iqtisadiyyatına 19,6 mlrd. dollar sərmayə yatırılmışdır.

Ancaq bununla yanaşı qeyd emək lazımdır ki, ölkədə özəl bölmənin inkişafı yönümündə əldə olunmuş müsbət nəticələrlə yanaşı, iqtisadiyyatın heç də bütün sahələri sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərə bərabər şəkildə uyğunlaşmamışlar. Odur ki, hazırda özəl bölmə heç də ölkə iqtisadiyyatının bütün sahələrində eyni səmərəliliklə fəaliyyət göstərmir. Tədqiqatlar göstərir ki, ölkədə müvafiq tədbirlərə tez bir zamanda iqtisadiyyatın kiçik bizneslə bağlı sahələri: ticarət, kommersiya, xidmət bölməsi uyğunlaşdırılmışdır, çünki bu sahələrdə sahibkarlıq ruhu, işgüzar fəaliyyətə meyllilik hər bir zamanda, hətta inzibati amirlik iqtisadiyyatı şəraitində belə çox yüksək olmuşdur. Hazırda ölkədə həyata keçirilən özəlləşdirmə həmin prosesin daha da genişlənməsinə, bu sahədə yeni-yeni xüsusi müəssisələrin, xarici mallarla ticarət aparan özəl obyektlərin, xüsusi kafelərin, restoranların, xidmət müəssisələrinin yaradılmasına, kənd təsərrüfatı, yüngül sənaye sahələrində çox da böyük olmayan xüsusi müəssisələrin fəaliyyətinə səbəb olmuşdur. Lakin qeyd edək ki, ölkəmiz özəl bölməni və sahibkarlığı inkişaf etdirmək üçün zəngin təbii ehtiyatlara, ixtisaslı, o cümlədən əqli işçi qüvvəsinə və iqtisadi fəaliyyətə cəlb edilməmiş sərbəst əmək ehtiyatlarına, əlverişli coğrafi mövqe və ərazinin optimal həcminə, çoxsahəli sənaye və kənd təsərrüfatına, zəruri və inkişaf etmiş infrastruktura malikdir. Eyni zamanda etiraf edək ki, bütün bu üstünlüklərə, eləcə də özəl bölmənin və sahibkarlığın inkişafı məqsədilə həyata keçirilmiş bir çox zəruri tədbirlərə baxmayaraq, hazırda ölkədə mövcud olan iqtisadi mühiti işgüzar fəallıq, xüsusilə də milli sahibkarlığın inkişafı üçün kifayət dərəcədə səmərəli və əlverişli saymaq olmaz. Belə ki, hazırda respublikanın qeyri-dövlət bölməsində hüquqi şəxs statusuna malik özəl müəssisələrin sayı 100 mindən çoxdur ki, bunun da 80 mindən çoxu və ya təxminən 80%-i kiçik və orta müəssisələrdir. Bəlkə də bunu ilk baxımdan qənaətbəxş hesab etmək olardı. Lakin iş ondadır ki, sahibkarlıq müəssisələrinin sayı haqqında olan məlumat bu gün respublika əhalisinin hər 10 min nəfərinə 32 dövlət qeydiyyatından keçmiş kiçik və orta özəl müəssisə düşdüyünü göstərir ki, bu da digər ölkələrin müvafiq göstəriciləri ilə müqayisədə xeyli azdır. Digər tərəfdən, respublika büdcəsinə

vergidən daxilolmaların xüsusi çəkisində kiçik və orta sahibkarlıq müəssisələrinin payı 60%-ə yaxındır ki, bunu da qənaətbəxş hesab etmək olmaz.

Onu da qeyd edək ki, respublika üzrə ÜDM-də özəl bölmənin payı kifayət qədər yüksək olsa da, mövcud sahibkarlıq müəssisələrinin nisbətən az bir hissəsi(təxminən 25-30%-i) istehsal fəaliyyəti ilə, qalan hissəsi isə ticarət və xidmət sahələrində məşğul olur. Digər tərəfdən isə, ölkə əhalisi tərəfindən istehlak edilən məhsulların xeyli hissəsinin idxal edilməsi göstərir ki, sahibkarlıq müəssisələri hələ də dövlət bölməsinin məhdudlaşması nəticəsində milli istehsalın xeyli azalması ilə bağlı nəticələri tam aradan qaldıra bilməmişdir. Bundan fərqli olaraq, ötən illər ərzində fiziki şəxslərin sayı dinamik şəkildə artmaqda davam etmişdir.

Ölkə qanunvericiliyinə görə, Azərbaycanda xarici investorlara əlavə hüquqi təminatlar verilir. Respublika ərazisində investisiya fəaliyyətinin ümumi, sosial, iqtisadi və hüquqi şərtləri, eləcə də xarici investisiyaların hüquqi və iqtisadi prinsipləri müvafiq olaraq "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilir. Belə ki, milliləşmə və rekvizisiya həyata keçirilsə, zərər çəkmiş xarici investorlar təcili və adekvat kompensasiya ilə təmin olunurlar. Digər tərəfdən, dövlət orqanları tərəfindən keçirilmiş qeyri-qanuni tədbirlər nəticəsində zərər çəkmiş xarici investorlara kompensasiya ödənilir. Bunlardan əlavə, vergilərin ödənilməsindən sonra əldə olunan gəlirin repatriasiyası da mövcuddur.

Sahibkarlığın inkişafı sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırmış, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına təkan vermişdir.

Ölkə regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində bölgələr inkişaf etmiş, sahibkarlığın inkişafı sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, yeni istehsal və emal müəssisələri, iqtisadi və sosial infrastruktur yaradılmış, əhalinin həyat səviyyəsi daha da

yaxşılaşdırılmışdır.

Son zamanlarda ölkədə bürokratik maneələri aradan qaldırmaq və sahibkarlığın inkişafına mane olan mənfi halları aradan qaldırmaq sahəsində dövlət tərəfindən vacib addımlar atılmışdır. Belə ki, ölkə prezidentinin ”Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi ilə təşkilinin təmin edilməsi tədbirləri haqqında” 2007-ci ilin 25 oktyabrında verdiyi sərəncamına əsasən ölkədə biznesə başlama prosedurlarının sadələşdirən “bir pəncərə” prinsipi tətbiq olunmuşdur. Hazırkı şəraitdə "bir pəncərə" prinsipinin vahid dövlət qeydiyyat orqanı ölkənin Vergilər Nazirliyidir. "Bir pəncərə" prinsipi əsasında biznes subyektlərini dövlət qeydiyyatından keçirilmə müddəti əvvəllər olduğu tək ən azı 30 gün deyil, 3 gün müəyyən olunmuş və tələb edilən prosedurların sayı 15-dən 5-ə qədər endirilmişdir.

«Bir pəncərə» prinsipini tətbiq etməklə biznesə başlamaq şərtləri xeyli dərəcədə yaxşılaşmışdır. Dünya Bankının «Doing Business» layihəsi çərçivəsində aparılan araşdırmalar göstərir ki, «bir pəncərə» prinsipinin tətbiqi müəssisələrin qeydiyyatı prosedurunu, buna lazım olan vaxt və xərcləri xeyli dərəcədə azaltmağa səbəb olmuşdur.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan “Doing Business 2016” reytinq hesabatında 2016-cı il üzrə Azərbaycan 189 ölkə sırasında 63-cü yerdə qərarlaşmışdır. Hesabatda Azərbaycan 5 göstərici üzrə ilk 40-lığa daxil olmuşdur. Biznesə başlamaq göstəricisi üzrə ölkəmiz dünyada 7-ci olmuşdur. “Mülkiyyətin qeydiyyatı” göstərici qiymətləndirilərək 22-ci mövqedə müəyyən edilmişdir. “Vergilərin ödənişi” və “İnvestorların müdafiəsi” göstəriciləri üzrə ölkəmiz müvafiq olaraq 34-cü və 36-cı yerlərdə, “Müqavilələrin icrasının təmin olunması göstəricisi üzrə isə 40-cı yerdə olmuşdur. “Dünya rəqabət qabiliyyətliliyi 2015-2016” hesabatında 140 ölkə arasında Azərbaycan 40-cı olmuşdur. Azərbaycan artıq 7 ildir ki, MDB ölkələri arasında liderdir [2, s.9].

### *2.2. Birgə müəssisələrin inkişafının və idarə edilməsinin müasir xüsusiyyətləri*

Azərbaycanda fəaliyyət göstərən xarici və birgə müəssisələrin inkişaf dinamikasını nəzərdən keçirsək görərik ki, son illərdə bu tip müəssisələrin sayı xeyli artmış, fəaliyyət dairəsi isə xeyli genişlənmişdir. Belə ki, 2005-ci illə müqayisədə 2013-cü ildə həmin müəssisələrin sayı 1,6 dəfəyə qədər artaraq 1235-ə çatmışdır. Xarici və birgə müəssisələrdə işləyənlərin sayı da 1,6 dəfəyə qədər artaraq 93 minə, onlarda istehsal edilən məhsul, iş və xidmətlərin həcmi 3,3 dəfə artaraq 23,4 mlrd. manata yüksəlmiş, işləyənlərin orta aylıq əmək haqqı isə 2,5 dəfə artaraq 1569,3 manat olmuşdur( Cədvə 2.2).

***Cədvəl 2.2***

**Azərbaycanda xarici və birgə müəssisələrin inkişaf dinamikası və fəaliyyəti.**

| İllər | Fəaliyyət göstərən müəssisələrin sayı | Onlarda işləyənlərin sayı | Məhsulun, işin və xidmətlərin həcmi, mln. Manatla | Orta aylıq əmək haqqı, manat |
|---|---|---|---|---|
| 2005 | 796 | 58413 | 7081,4 | 627,7 |
| 2010 | 1091 | 55936 | 24011,9 | 1008,0 |
| 2015 | 1235 | 93002 | 23423,1 | 1569,3 |
| 2015-ci il 2005-ci ilə nis. faizlə | 155,2 | 159,2 | 330,8 | 250,0 |

Mənbə: Müstəqil Azərbaycan -25. Bakı, 2016, s.134-136.

Xarici və birgə müəssisələrin iqtisadi fəliyyət növləri üzrə əsas göstəricilərinin dinamikasına baxdıqda məlum olur ki, təhlil edilən dövrdə bu tip sənaye müəssisələrinin sayı 14,4 faiz artsa da, onların buraxılış həcmi 3,1 dəfə yüksəlmişdir (Cədvəl 2.3 ). Nəticədə sənaye üzrə bu tip müəssisələrin buraxılış həcminin xüsusi çəkisi 2005-ci ildəki 71,8 faizdən 68,9 faizə azalmışdır. Buraxılış həcminə görə sonrakı yerləri tikinti müəssisələri, nəqliyyat və anbar təsərrüfatı müəssisələri tutur.

*Cədvəl 2.3*

## Xarici və birgə müəssisələrin iqtisadi fəliyyət növləri üzrə əsas göstəricilərinin dinamikası

| | 2005-ci il | | | 2015-ci il | | | 2015-cü il 2005-ci ilə, nisbətən %-lə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Fəaliyyətdə olan müəssisə, vahid | İşçilərin sayı, nəfər | Məhsul, iş və xidmət-lərin həcmi, mln. manatla | Fəaliyyətdə olan müəssisə, vahid | İşçilərin sayı, nəfər | Məhsul, iş və xidmətlərin həcmi, mln. manatla | Fəaliyyətdə olan müəssisə vahid | İşçilərin sayı, nəfər | Məhsul, iş və xidmətlərin həcmi, mln. manatla |
| **Cəmi** | 796 | 58413 | 7081,4 | 1235 | 93002 | 23423,1 | 155,2 | 159,2 | 330,8 |
| kənd təsərrüfatı və s. | 4 | 291 | 1,7 | 18 | 235 | 5,8 | 450,0 | 80,8 | 341,2 |
| Sənaye | 208 | 23574 | 5172,3 | 238 | 24830 | 16147,5 | 114,4 | 105,3 | 312,2 |
| Tikinti | 71 | 15200 | 820,7 | 149 | 26421 | 2463,0 | 209,9 | 173,8 | 300,1 |
| ticarət; nəqliyyat vasitələrinin təmiri | 234 | 4216 | 64,2 | 350 | 16564 | 308,4 | 149,6 | 319,2 | 480,4 |
| nəqliyyat və anbar təsərrüfatı | 81 | 3797 | 502,2 | 71 | 6143 | 2110,7 | 87,7 | 161,8 | 420,3 |
| daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 128 | 7292 | 455,0 | 16 | 590 | 36,0 | 12,5 | 8,1 | 7,9 |
| təhsil | 23 | 1224 | 5,8 | 23 | 966 | 2,6 | 100,0 | 78,9 | 44,8 |
| səhiyyə və sosial xidmətlə | 14 | 779 | 3,6 | 12 | 574 | 3,8 | 85,7 | 73,7 | 105,6 |

r

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| digər sahələr | 143 | 25352 | 62,0 | 358 | 16669 | 266 | 250,3 | 65,8 | 429,0 |

Mənbə:. Müstəqil Azərbaycan -25. Bakı, 2016, s.134-136.

Tədqiqatdan aydın olur ki, son vaxtlar daxili investisiyaların xüsusi çəkisi xeyli artmış olsa da, ölkə iqtisadiyyatında xarici investisiyalar daha yüksək əhəmiyyət kəsb etmişdir. Təhlil göstərir ki, 2005-2015-ci illər ərzində xarici investisiyaların həcmi 99,4 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bu da ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların ümumi həcminin 44,2%-nə bərabərdir.

*Cədvəl 2.4*

**Azərbaycan Respublikası iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi (mln. ABŞ dolları)**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 927 | 4893,2 | 8247,8 | 10719,1 |
| O cümlədən: | | | | |
| Maliyyə kreditləri | 262,9 | 698,4 | 3405,9 | 2210,2 |
| Neft sənayesinə | 546,1 | 3799,9 | 2955,3 | 6622,7 |
| Birgə və xarici investisiyalı müəssisələr | 118 | 230,5 | 659,6 | 860,4 |

Mənbə: Cədvəl müəllif tərəfindən AR DSK-nın məlumatları əsasında hazırlanmışdır.

Xarici investisiyaların strukturuna nəzər yetirdikdə aydın olur ki, son illərdə maliyyə kreditlərinin həcmi 2000-ci il və 2005-ci illə müqayisədə 2015-ci ildə müvafiq olaraq 8,4 dəfə və 3,2 dəfə artsa da, onların xüsusi çəkisi 2000-ci ildəki 28,4%-dən 2015-ci ildə 20,6%-ə qədər azalmışdır. Neft sənayesinə yönəldilən xarici investisiyaların payı isə 2000-ci ildəki 59,0%-dən 2005-ci ildə 81,0%-ə qalxsa da, 2015-ci ildə bu göstərici 61,8%-ə enmişdir. Birgə və xarici investisiyalı müəssisələrin xüsusi çəkisi isə 2000-ci illə müqayisədə 7,3 dəfə artsa da, xüsusi çəkisi 12,7%-dən 2015-ci ildə 8,0%-ə enmişdir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, təhlil olunan dövrdə ölkə iqtisadiyyatının inkişafına daxili və xarici mənbələr hesabına xeyli investisiyalar yatırılmışdır ki, bu da bütövlükdə onun maliyyə vəsaitləri ilə təmin olunması sahəsində hələ də tam reallaşmamış mövcud potensialın olması haqda nəticə çıxarmağa imkan verir. Lakin bununla belə, vəziyyətin sahibkarlıq baxımından təhlili bu sahədə hələ də problemlərin mövcud olduğunu göstərir.

Belə ki, ilk növbədə onu da qeyd edək ki, 2005-2015-ci illərdə müxtəlif mənbələrdən olan investisiyaların müqayisəli araşdırması göstərir ki, həmin dövrdə ölkə iqtisadiyyatının inkişafına qoyulan sərmayələrin hələ də yarıya qədəri xarici ölkələrin və maliyyə qurumlarının payına düşür.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, 2007-ci ilə kimi Azərbaycanın iqtisadiyyatına qoyulmuş investisiyalarda birbaşa xarici investisiyaların mühüm mənbə olması müşahidə olunsa da, həmin dövrdən etibarən daxili investisiyanın fəallığının dövlət maliyyənin hesabına yüksəlməsi baş vermişdir[1]. Nəticədə, respublikada birbaşa xarici investisiyaların əsasında formalaşan əsas kapital xüsusi çəki baxımından ÜDM-in tərkibində azalaraq regionun ortalama göstəricindən geri qalmışdır. 2014-cü ilin statistik məlumatlarına görə, Azərbaycan üzrə birbaşa xarici investisiyaların ÜDM-də payı 25 faiz olmuşdursa, bu göstərici Gürcüstan üzrə 74 faizə, Qazaxıstan üzrə 61 faizə, Türkmənistan üzrə 55 faizə, Ukrayna üzrə 49 faizə, Qırğızıstan üzrə 48 faizə və Moldova üzrə 46 faizə bərabər olmuşdur[1].

2004-cü ildən 2015-ci ilə qədər olan dövrdə Azərbaycana 52 milyard ABŞ dollarında BXİ qoyulmuşdur ki, ondan da 85 faiz neft sektoru üçün, 15 faiz qeyri–neft sektoru üçün istifadə edilmişdir. Bu dövr ərzində qeyri-neft sektoru üçün nəzərdə tutulan BXİ pay etibarilə kiçik olsa da, artım sürətinə görə böyük templə inkişaf etmişdir. Statistik məlumatlara görə, BXİ üzrə bütövlükdə orta illik artım tempi 8,2 faizə bərabər olmuşsa, qeyri–neft sektorunda bu göstəricinin 32,5 faiz təşkil etdiyi müşahidə olunur. Lakin artım sürətinin yüksəkliyi olsa da,

bu sektora yönəldilmiş BXİ-nin həcmi cari imkanlardan hələlik geridir (şəkil 2.1).




**Şəkil 2.1. Birbaşa xarici investisiyanın ÜDM-də payı [1]**

Bundan əlavə, qeyd etmək lazımdır ki, BXİ hərəkəti ilə bağlı transmilliləşmənin dünya istehsalına təsirini sektorun dinamikası aydın nümayiş etdirir. Son on ildə xidmət sektoruna birbaşa xarici investisiyaların payı artmış, onların xammal sektorunda payı demək olar ki, iki dəfə azalmış və emal sənayesində dəyişməz qalmışdır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üzrə dinamika xüsusi maraq kəsb edir. TMK investisiyalarının idxalı tendensiyası sübut edir ki, beynəlxalq istehsalın əsas hissəsi inkişaf etmiş ölkələrdə xidmət sektorlarında və inkişaf etməkdə olan ölkələrdə emal sənayesi sahələrində cəmləşmişdir. Hər iki ölkə qruplarının xammal sektorunda birbaşa xarici investisiyaların payında azalma müşahidə olunur. Dünya iqtisadiyyatının strukturunda adekvat olaraq bu tendensiyalar, eləcə də şirkətlər və ölkələrin rəqabət üstünlüklərindəki dəyişikliklərdə öz əksini tapmışdır ki, bu da onları investitsiyların yerləşdirilməsi  üçün daha cəlbedici edir[6].

Həmçinin qeyd etmək lazımdır ki, transmilliləşmə ayr-ayrı sahələrin, sektor və istehsalın dünyanın bir bölgəsindən digər bölgələrinə köçürülməsinə səbəb olur. Məsələn, post-industrial cəmiyyətin formalaşmasının əvvəlində metallurgiya, avtomobil istehsalı, neft-kimya sənayesi və bəzi belə digər sahələr inkişaf etmiş ölkələrdən Latın Amerikası və Yaxın Şərq ölkələrinə köçürülmüşdür [29]. Əməktutumlu sahələr ucuz işçi qüvvəsi olan regionlarda yerləşdirilir. Həmçinin inkişaf etmiş ölkələrin emal sənayesinin ənənəvi sahələrindən imtinası da baş verir.

Eyni zamanda qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin TMK-ları periferik və qeyri-periferik iqtisadiyyatlarda iqtisadi aktivliyi genişləndirərək, çox vaxt alıcı ölkələrin milli maraqlarına məhəl qoymurlar. TMK bu dövlətlərin həm daxili resurslarından, həm də beynəlxalq istehsal amillərindən istifadə edirlər. Bundan əlavə, TMK yerli şirkətlərə güclü rəqabət yaradır və daxili bazarda onları sıxışdırır. Tez-tez ev sahibliyi edən ölkələrdə TMK milli müəssisələrə nisbətən təsərrüfat fəaliyyətinin preferensial rejiminə vergilərin, yerli infrastrukturdan istifadəyə görə haqqın aşağı salınması və digər güzəştlər şəklində nail olur.

Bununla əlaqədar olaraq, elmi ictimaiyyətdə belə bir fikir formalaşır ki, bütün öz tərəfdaşlarına münasibətdə uduş vəziyyətində o dövlətlər olur ki, onların ərazisində “qlobal korporativ güc”ün böyük bir hissəsi cəmlənmiş olsun (ilk növbədə ABŞ, eləcə də Yaponiya, Almaniya, qismən də Fransa) [16].

Lakin, fikrimizcə, bu mövqe kifayət qədər əsaslandırılmır və özünü doğrultmur. Qeyd edək ki, bir qayda olaraq, birbaşa investisiyalardan xarici firmalar, investorlar, ev sahibi ölkələrinin işçiləri (iş yerləri), ev sahibi ölkələrinin əhalisi (BXİ gəlirlərindən vergi hesabına sosial xidmətlərin mümkün artımı) udurlar .

Eyni zamanda uduzanlar aşağıdakılardır: investor ölkələrin işçiləri, belə ki, BXİ iş yerlərinin ixracı deməkdir; qəbul edən ölkənin rəqabət edən şirkətləri; investor ölkələrin vergi ödəyiciləri, belə ki, TMK-nın mənfəətindən vergi tutmaq mürəkkəbdir və hökumət ya itirilmiş vergi daxilolmalarının məbləğini digər vergi

ödəyicilərinin üzərinə keçirirlər və ya büdcə hesabına maliyyələşdirilən sosial proqramları azaldırlar.

Belə ki, müasir dünyada transmilliləşmənin sürətli inkişaf fenomeni aşağıdakı iki amilin kömək etdiyi TMK-nın kapital cəlb etmək və saxlamaq qabiliyyəti ilə izah oluna bilər:

- xarici mühitdə dəyişikliklərə çevik reaksiya vermək qabiliyyəti, bu, müsbət proseslərin istifadəsinə və mənfi təsirlərin, dağıdıcı böhran hadisələrinin qarşısını almağa və ya azaltmağa imkan verir;

- daxili özünüinkişaf potensialının mövcudluğu, bu iqtisadi yüksəlişin təkanverici qüvvəsi kimi çıxış edir, TMK-nın gücünü formalaşdırır, onlara beynəlxalq miqyasda müəyyən mövqeni təmin edir.

### 2.3. Azərbaycanda birbaşa xarici investisiyaların müasir inkişaf neyllərinin qiymətləndirilməsi

ABŞ-da və Qərbi Avropa ölkələrində iri sənaye korporasiyalarının müflisləşməsinə gətirib çıxaran böhran hallarına cavab olaraq səhmdar kapitalın daha da inkişafına yanaşmada xeyli irəliləyişlər baş verdiyi halda ölkəmizdə bu meyllər və sahədəki islahatlar diqqət mərkəzindən kənarda qalmaqda davam edir. Hələ bu azmış kimi respublika iqtisadiyyatında fəaliyyət göstərən korporativ idarəetmə strukturlarının malik olduqları səhmdar kapitalların fəaliyyət dairəsi və strukturu da qeyri-şəffaf olaraq qalır. Bu isə, hər şeydən əvvəl, ölkədə xırda səhmdarların təşkilatlanmaq səviyyəsinin və özəlləşmədən sonra formalaşan səhmdar şirkətlərin sonrakı fəaliyyəti üzərində nəzarət mexanizminin xeyli aşağı olması, səhmdar kapitalın formalaşması və idarə edilməsi sahəsində hər hansı standartın olmaması ilə izah olunur. Odur ki, hesab edirik ki, istər daxili, istərsə də xarici investisiyaları cəlb etmək yolu ilə, ölkədə korporativ sektorun və fond bazarının inkişafını müasir beynəlxalq standartlara uyğunlaşdırmaqla yuxarıda qeyd olunan nöqsanları aradan qaldırmaq olar.

Yuxarıda qeyd olunanları yekunlaşdırmaqla belə qənaətə gəlmək olar ki, ölkəmizdə obyektiv olaraq həyata keçirilən təmərküzləşmə və mərkəzləşmə prosesi

spesifik cəhətlərə malikdir və iqtisadiyyat, idarəetmə və texnologiya sferasında dövlət inhisarının təsiri altında yerləşir. Makroiqtisadi birliklərin meydana çıxması üstün olaraq müəssisənin birləşməsi və qovulması əsasında həyata keçirilir ki, bu da istehsal həlqələrində yığımın qeyri-kifayət səviyyəsi ilə, xüsusi dövriyyə vəsaitlərinin çatışmazlığı, bank ssudaları və büdcəyə vergilər üzrə yüksək borclarla şərtlənir. Korporativ səviyyədə proseslərlə əlaqədar olan inhisarçılıq meylləri pozitiv meyllər kimi nəzərdən keçirilir, çünki bunlar mütləq dövlət inhisarizmindən uzaqlaşmaqda meydana çıxır və üstün olaraq yenilik formasında rəqabətin obyektiv məqsədəuyğunluğunu qoruyub saxlayırlar.

Müasir dövrdə, qloballaşma şəraitində ölkənin iqtisadi inkişafına xarici amillərin təsiri artmaqdadır. Ölkədə davamlı inkişafı təmin etmək məqsədilə xarici amillərin imkanlarından səmərəli istifadə etməklə iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək mümkündür. Bu baxımdan, ölkə qarşısında duran mühüm vəzifələrdən biri milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsündə səmərəli iştirakını təmin etməkdən, xarici kapitalın, mütərəqqi texnologiya və idarəetmə təcrübəsinin cəlb olunması yolu ilə məhsuldar qüvvələrin inkişafına nail olmaqdan ibarətdir. Təcrübə göstərir ki, birbaşa xarici investisiyanı qəbul edən ölkə ondan real fayda əldə edir. Belə ki, xarici investisiyanın cəlb edilməsi ölkədə investisiya resurslarının təklifini artırır, ölkə daxilində müasir texnologiyanın tətbiqinin genişlənməsini, sahibkarlığın və idarəetmənin yeni qaydalarının və mədəniyyətinin formalaşmasını stimullaşdırır, habelə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasının güclü amilinə çevrilir.

Araşdırmalar göstərir ki, əgər müharibədən sonrakı ilk onilliklərdə birbaşa xarici investisiyalara münasibətdə əsas siyasət vektoru, hər şeydən əvvəl, məhdu-diyyətlərlə və nəzarət tədbirləri ilə müəyyən edilirdisə, indi hazırda investorların cəlb edilməsi praktiki olaraq bütün hökumətlərin diqqət mərkəzindədir. Keçən əsrin 90-cı illərində birbaşa xarici investisiyaların dövlət tənzimlənməsinin əsas meyli onların liberallaşdırılması olmuşdur. İnvestisiya mühiti yaxşılaşdırılır, əvvəlki məhdudiyyətlər ləğv edilir, bazar rəqabəti genişləndirilir. Birbaşa xarici investisiyaların cəlb edilməsinin liberallaşdırılması, stimullaşdırılması və

müdafiəsi vəzifələri bu proseslərin ayrı-ayrı dövlətlər çərçivəsində tənzimlənməsindən regional və çoxtərəfli səviyyələrə çıxarılmasını tələb etdi. Hazırda investisiyaların milli norma və qaydalarının konvergensiyası (eyniləşdirilməsi) prosesi baş verir. Bütün iştirakçıların maraqlarının tanınmasına əsaslanan və qarşılıqlı faydanın təmin olunmasına yönəldilən bu yanaşma, son nəticədə, daha səmərəli yanaşma sayılır. Azərbaycanda bu istiqamətdə mühüm addımlar atılmışdır. Belə ki, xarici investisiyalı müəssisələrə milli rejim verilmiş və onlar ölkədə qanunla qadağan olunmayan istənilən fəaliyyət növü ilə məşğul ola bilərlər.“Xarici investisiyaların qorunması haqqında” qanununa əsasən müdafiə, milli təhlükəsizlik və ictimai qaydanın təmin olunması, vergitutma, kredit və maliyyə, ətraf mühitin, əhalinin əxlaq və sağlamlığının mühafizəsi sahəsindəki qanunvericilik aktları istisna olmaqla, digər qanunvericilik aktlarının dəyişməsi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə, on il ərzində xarici investisiyaya investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir. Həmçinin, bu qanunla ölkədə xalqın və dövlətin mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, xarici investisiya milliləşdirilmir, təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir. Əgər belə hallar baş verərsə, xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir. “Xaric investisiyaların qorunması haqqında” qanun xarici investora öz əmlakını, gəlirlərinə müstəqil sərəncam verməyə dair təminatlar verir. Eyni zamanda, Azərbaycan Respublikası ABŞ, Almaniya, Böyük Britaniya, Türkiyə, Avstriya, Norveç, Fransa və s. ölkələrin də daxil olduğu, dünyanın 30-dan çox ölkəsi ilə investisiya qoyuluşlarına qarşılıqlı təminatı və ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr bağlanmış, ölkə bu sahədə mövcud olan bir çox beynəlxalq sazişlərə qoşulmuşdur.

Müasir dövrdə dünya təsərrüfatının inkişafının əsas meyllərindən və səciyyəvi xüsusiyyətlərindən biri xarici investisiyaların məcmu həcminin əhəmiyyətli dərəcədə artması, onların artım templərinin sürətlənməsidir. Belə ki, dünyada birbaşa xarici investisiyaların illik axını 1982-ci ildə 28 mlrd. ABŞ

dolları, 1990-cı ildə 242 mlrd. ABŞ dolları, 1995-ci ildə 330 mlrd. ABŞ dolları, 2002-ci ildə 651,2 mlrd. ABŞ dolları, təşkil edirdisə, 2015-cü ildə isə bu göstərici 1,76 trilyon ABŞ dollarından çox olmuşdur. Bu göstərici 2008-2009-cu illərin maliyyə böhranından sonra ən yüksək göstəricidir. Araşdırmalar göstərir ki, son onilliklər ərzində birbaşa xarici investisiyaların həcmi beynəlxalq ticarətə və ÜDM-ə nisbətən daha sürətlə artır. Orta müddətli perspektivdə 2017-ci ildə BXİ-nin qlobal axınlarının artımının bərpası, 2018-ci ildə isə, qlobal artımın gözlənilən sürətlənməsi şəraitində 1,8 trln. dolları ötəcəyi proqnozlaşdırılır.

Firmalar, bəzən istehsal və ya bazar potensialını səmərəli reallaşdırmaq üçün öz ölkəsində maddi və maliyyə resursları, texnologiya, idarəetmə kadrları, informasiya və s. iqtisadi resurslarla təminatda çətinliklərlə qarşılaşırlar. Xarici iqtisadi fəaliyyət firmalara xarici ölkədə olan xammal və materiallardan, maliyyə mənbələrindən, iş qüvvəsindən və s. istifadə etməyə imkan verir. Firmaların xarici investisiya qoyuluşu məhsul ixracına nisbətən nəqliyyat xərclərinə və gömrük rüsumlarının ödənilməsinə qənaət etməyə, istehlakçılara məhsul satışı ilə əlaqədar daha yaxından xidmət göstərməyə imkan verir. Eyni zamanda, firma ölkələr arasındakı əmək haqqının səviyyəsində, kredit rejimində və s. ifadə olunan fərqlərdən istifadə edərək istehsal xərclərini aşağı salır. Bütövlükdə, firmaları xarici ölkədə investisiya qoyuluşunu həyata keçirməyə sövq edən əsas səbəblərə aşağıdakılar aiddir:

– ölkəyə məhsul ixracı imkanının məhdud olması;

– yerli bazarın tələblərinə uyğun, nisbətən ucuz və keyfiyyətli məhsul istehsalının təşkili mümkünlüyü;

– dünya bazarına xidmət üçün ölkənin ən yaxşı coğrafi mövqeyi;

– firmanın yerli bazarda iştirakı hesabına satış bazarını genişləndirmək imkanının olması;

– qiymət və tələbin dəyişməsindən yaranan riski azaltmaq məqsədilə ölkələr üzrə məhsul istehsalının diversifikasiyasına nail olmaq.

Milli iqtisadiyyata xarici kapitalın cəlb edilməsi ilk növbədə, milli qənaətin azlığı ilə əlaqədardır. Belə ki, ölkə daxilində məcmu qənaətin həm mütləq, həm

də nisbi mənada azlığı iqtisadi artımı məhdudlaşdırır. Təsadüfi deyildir ki, nisbətən uzun müddət ərzində Xarrod-Domar modelindən iqtisadi artımın müəyən tempini təmin edən qənaət normasının hesablanması üçün istifadə edilmişdir (bu məsələ birinci fəsildə baxılmışdır). Bu zaman, xarici investisiyaya müəyyən iqtisadi artım tempini təmin etməyən milli qənaəti tamamlayan amil kimi baxılmışdır. Bununla belə, ölkədə qənaət normasının yüksək olması heç də buna müvafiq yüksək iqtisadi artım tempini təmin etmir. Bu zaman, məcmu qənaətin məhsuldar investisiyaya çevrilməsi mexanizminin olması zəruridir. Bu isə, ilk növbədə, ölkədə qənaət edilmiş vəsaitlərin investisiya kimi mənimsənilməsi üçün istehsal, texnoloji və kommersiya biliklərinin olmasını tələb edir. Belə biliklərin məhdudluğu şəraitində mövcud vəsaitlərin mənimsənilməsi çətinləşir. Nəticədə ölkənin iqtisadi imkanlarından tam istifadə olunmur, sərbəst iqtisadi resurslar mövcud olur. Bu baxımdan, fikrimizcə, ingilis iqtisadçısı U.A.Lyus düzgün olaraq qeyd edir ki, əgər yerli kapitalla xarici kapital arasında alternativ varsa, üstünlük yerli kapitala verilə bilər, yox əgər seçim hərəkətsiz qalan resurslarla xarici kapital arasındadırsa, onda şübhə yoxdur ki, xarici investisiya daha yüksək istehlak, təhsil və daxili investisiya üçün zəruri olan gəlirlərin artmasında çox faydalı rol oynayır.

Xarici investisiyanın ölkəyə cəlb olunmasında əsas məqsədlər aşağıdakılardan ibarətdir:

-ölkədə istehsal olunan məhsulun rəqabət qabiliyyətinin, istehsalın texniki-iqtisadi səviyyəsinin artırılması;

-ölkədə struktur dəyişikliklərinin aparılması və mövcud iqtisadi potensialı reallaşdırmaq üçün yeni müəssisələrin yaradılması;

-yeni ixracyönlü və idxalı əvəz edən istehsalların yaradılması;

-ölkədə rəqabətin inkişaf etdirilməsi üçün yeni təsərrüfat subyektlərinin yaradılması;

- az inkişaf etmiş ərazilərin inkişaf etdirilməsi;

- daxili bazarın tələbatını və ölkənin istehsal potensialını artırmaq üçün yeni faydalı qazıntı yataqlarının mənimsənilməsi;

- istehsal, texnologiya və kommersiya sahəsində xarici təcrübədən istifadə.

Xarici investisiyanın cəlb olunması, ilk növbədə istehsal resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinə şərait yaradır. Nəticədə, müəyyən həcmdə istehsal amillərinin məşğulluğu artır, milli gəlir yerli təhcizatçılar, iş qüvvəsi və s. tərəfindən yaradılan əlavə dəyər hesabına artır. Belə şəraitdə, ölkəyə gətirilən yeni texnika və texnologiyanın, mütərəqqi idarəetmə və marketinq üsullarının yayılması nəticəsində yerli istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəlməsi üçün əlverişli şərait yaranır.

İqtisadi inkişafın sahə prioritetlərini müəyyən edərkən balanslaşdırılmış yanaşmaya üstünlük verməк lazımdır. Hazırki şəraitində xarici investisiyanın həm ağır, həm də yüngül sənaye sahələrinə cəlb edilməsi istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır. Xarici investisiyanın cəlb edilməsinin sahə prioritetlərini müəyyən edərkən müvafiq sənaye sahələrinin ixrac potensialının reallaşdırılması imkanlarını da nəzərə almaq lazımdır. Ölkədə yüngül və yeyinti sənayesində rəqabətqabiliyyətli məhsul istehsalı üçün müvafiq potensialın mövcudluğu bu sahəyə xarici investisiyaların cəlb olunmasını tələb edir.

# FƏSIL 3. MÜŞTƏRƏK SAHİBKARLIĞIN İDARƏ EDİLMƏSİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## *3.1. Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə qərarların işlənməsi, qəbulu və həyata keçirilməsi səmərəliliyinin artırılması istiqamətləri*

Bizim apardığımız tədqiqatlar müştərək sahibkarlığın korporativ strategiyalarda vacibliyini yeni bazarların mənimsənilməsində, habelə onların kəşfiyyat sübut etdi. Bu mövzu dünya üçün öz əhəmiyyətini artırır.

Əlverişli investisiya mühitinin yaradılması bazarın uğurunun əsas göstəricisidir. Araşdırmalara görə, son iyirmi il ərzində ölkə iqtisadiyyatına xarici investisiyaların davamlı artım dinamikası mövcuddur.

İnvestisiya layihələri prioritetlərinin səriştəli bölgüsü ölkənin rəqabətqabiliyyətliyini artırır. Bu, müştərək sahibkarlığın idarə olunmasının təkmilləşdirilməsi ilə bağlıdır. [23]

Dissertasiyada müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə təsirli tədbirlərin qəbuluna mane olan səbəblərin axtarılması istiqamətində aparılan tədqiqatlar əsasında bizim tərəfimizdən əsas maneələr müəyyənləşdirilmişdir (Şəkil 3.1).

Bu problemlər daxili və xarici problemlərə bölünür, çünki xarici problemləriin həlli zamanı dövlət səviyyəsində hökumətin müdaxiləsi tələb olunur. Daxili problemlər isə öz növbəsində, yalnız regional səviyyədə müdaxiləni tələb edir, lakin həm də dövlət səviyyəsində müdaxiləni istisna etmir.

Burada xarici problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müştərək müəssisələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının zəif inkişafı ;

2. Ölkə və regional səviyyədə müştərək müəssisələrin təşkili və idarəetmə mexanizminin olmaması;

3. Müştərək sahibkarlıq üzrə vahid məlumatlar bazasının olmaması;

4. Kifayət qədər inkişaf etməyən işgüzar və istehsal infrastrukturu;

5.Yüksək kreditləşmə riskləri.

Daxili problemləri isə aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Müştərək müəssisələrin təşkilinə yüksək xərclər;

2.Mövcud istehsalların aşağı rəqabətqabiliyyətliyi və rentabelliyi;

3. İnvestorların, sahibkarlıq strukturları rəhbərliyinin passivliyi;

4. Daxili kommunikasiyaların zəif inkişaf etmiş sistemi;

5. Müsbət xarici təcrübəyə kifayət qədər olmayan istiqamətlənmə və müştərək sahibkarlığın idarə edilməsinin aşağı elmi əsaslandırılma;

6. Müştərək müəssisələrin təşkili üzrə idarəetmə qərarlarının qəbulunun yüksək riskləri.

Problemlər

**Xarici problemlər**

1. Müştərək müəssisələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının zəif inkişafı ;

2. Ölkə və regional səviyyədə müştərək müəssisələrin təşkili və idarəetmə mexanizminin olmaması;

3. Müştərək sahibkarlıq üzrə vahid məlumatlar bazasının olmaması;

4. Kifayət qədər inkişaf etməyən işgüzar və istehsal infrastrukturu;

5.Yüksək kreditləşmə riskləri.

**Daxili problemlər**

1.Müştərək müəssisələrin təşkilinə yüksək xərclər;

2.Mövcud istehsalların aşağı rəqabətqabiliyyətliyi və rentabelliyi;

3. İnvestorların, sahibkarlıq strukturları rəhbərliyinin passivliyi;

4. Daxili kommunikasiyaların zəif inkişaf etmiş sistemi;

5. Müsbət xarici təcrübəyə kifayət qədər olmayan istiqamətlənmə və müştərək sahibkarlığın idarə edilməsinin aşağı elmi əsaslandırılma;

6. Müştərək müəssisələrin təşkili üzrə idarəetmə qərarlarının qəbulunun yüksək riskləri.

**Şəkil 3.1. Müştərək müəssisələrin yaradılması zamanı meydana çıxan formalaşma və effektiv fəaliyyət problemləri**

Müştərək sahibkarlıqda idarəetmə qərarlarının qəbulu səmərəliliyinin artırılmasının əsas istiqamətləri aşağıdakılardır:

1) Dəstək - hökumətin zəmanəti, sığorta və kreditləşmədə güzəştlər:

- investisiya ayihəsinin başlanğıc gününə mənfi tendensiyaların gücləndirilməməsinə zəmanət verilir;

- investisiyalar qoyuluşları qanunvericilikdə yazılan hallardan başqa, geri

götürülə bilməz;

- investisiya layihələrinin maliyyələşməsini təmin edən lizinq və kredit firmalardan güzəştli vergi tutulması;

- regional qanunvericiliyinə uyğun olaraq, əlverişli vergi dərəcəsi tətbiq olunur.

2) Kommunikasiyanın inkişafı - əlaqələrin gücləndirilməsi, bu, informasiya paylanmasının səmərəliliyinə və şəffaflığına kömək edir:

Media - əhalinin və potensial investorların maarifləndirilməsi.

Elm - daha dəqiq proqnozlaşdırılma və potensial problemlərin həlli imkanı.

İnzibatçı - müştərək sahibkarlığa təsirin sadələşdirilməsi, dəstək və nəzarət.

İstehsal - bazarda istehsalın və fəaliyyətin planlaşdırmasını asanlaşdırmaq.

3) İnfrastrukturun inkişafı – dəmir yolları, avtomobil yolları, zəruri rabitə.

4) İstehsallarda elmi yanaşmanın inkişafı - elmi yanaşma əvvəlcədən investisiya və iqtisadi vəziyyəti qiymətləndirməyə kömək edəcək. Və həmçinin problemləri vaxtında görməyi və s. asanlaşdırır, həmçinin onları aradan qaldırmaq üçün əvvəlcədən qərarlar hazırlamağa komək edir.

İnformasiyanın olmaması – ölkənin iqtisadi inkişafı və onun fəal investisiyalaşması yolunda ən ağır mənfi amillərdən biridir. Rabitənin inkişafı tədricən onu neytrallaşdıra və təkcə investisiya mühitinə deyil, eləcə də istehsal və elmə, ölkədə biznesə nəzarətin sadələşdirilməsinə müsbət təsir edə bilər.

İşdə müştərək sahibkarlığın təkmilləşdirilməsi məhsuldarlığının artırılması üzrə hər bir istiqamət hərtərəfli araşdırılmışdır. Dissertasiyada məqsədi uğurlu qırarların qəbulu və monitorinqin sadələşdirilməsi olan müştərək sahibkarlığın idarə edilməsinin yaxşılaşdırılması metodologiyası hazırlanmışdır.

Müştərək sahibkarlığın təşkili və idarə edilməsi metodikası hər hansı bir investisiya layihəsinin 3 addımdan ibarət təşkilini nəzərdə tutur. Əlbəttə, hər bir addımda maneələr və onların həlli yolları ola bilər.

Addım 1: təşkilati mərhələ.

Addım 2. Müəssisənin yaradılması prosesi.

Addım 3: Nəticələr.

Metodika işin 2 mühüm istiqamət üzrə aparılmasını nəzərdə tutur:

1. Müştərək sahibkarlığın idarə edilməsi məhsuldarlığının artırılması (xərclərin azaldılması və idarəetmə prosesinin sürətləndirilməsi).

Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə maneələri aradan qaldırmaq üçün bazarın aşağıdakı aktual şərtlərinə daha çox diqqət etmək lazımdır:

- birgə müəssisənin təzə layihəsinin təşkili;
- bazar şəraitinin dəyişməsi ilə;
- Bazarda rəqabəti artıraraq.

Nəticədə, müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə əsas istiqamətlər 3.1-ci cədvəldəki kimi təqdim edilə bilər.

**Cədvəl 3.1. Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi səmərəliliyinin artırılması üzrə əsas istiqamətlər və tövsiyələr**

| Əsas istiqamətlər | Tövsiyələr |
|---|---|
| 1. İdarəetmə qərarının səmərəli qəbulu prosedurunun zəruriliyi | 1.Yenidən hazırlıq və ixtisasın artırılması kursları (bütün səviyyələrdə) |
| 2. Problemlərin dəqiq qoyuluşu | 2. Elmi nəşrlər |
| 3. İnzibati resursun istifadəsinin səmərəliliyi. | 3. İctimai rəyin monitorinqi |
| 4. Bazarın rəqabətliliyi | 4. Monitorinq, təhlil, proqnoz |
| 5. Elmi tədqiqatlar | 5. Səmərəliliyin artırılması |

Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi səmərəliliyinin artırılması üzrə əsas istiqamətlər aşağıdakılardır:

1. İdarəetmə qərarının səmərəli qəbulu prosedurunun zəruriliyi.
2. Problemlərin dəqiq qoyuluşu.
3. İnzibati resursun istifadəsinin səmərəliliyi.
4. Bazarın rəqabətliliyi.
5. Elmi tədqiqatlar.

Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi səmərəliliyinin artırılması üzrə tövsiyələr aşağıdakılardır:

1.Yenidən hazırlıq və ixtisasın artırılması kursları (bütün səviyyələrdə).

2. Elmi nəşrlər.

3. İctimai rəyin monitorinqi.

4. Monitorinq, təhlil, proqnoz.

5. Səmərəliliyin artırılması

Təşkilatın səmərəliliyinin artırılması üzrə tövsiyələr, nəticələr çıxarmağa və tövsiyələr hazırlamağa təhlili bazası verən lazımi məlumatları almağı təmin edən təşkilatlanma prosesini yaxşılaşdırmağa imkan verir.

2. Daxili rabitə sisteminin müasirləşdirilməsi. Rabitənin kifayət qədər inkişafının olmaması müştərək sahibkarlığın strukturunun fəaliyyətinə mənfi təsir ki, bu da özünü aşağıdakılarda göstərir:

- zəruri informasiyanı emal etməyə yüksək adam-saat xərcləri lazımdır;
- biznes strukturunda məlumatların qeyri-bərabər paylanması;
- məlumatların qeyri-bərabər paylanması nəticəsi kimi mütəşəkkil qarşılıqlı təsirə riayət etmək.

Nəticədə, rabitənin təşkilati vahidləri arasında əsas problemlər müxtəlif struktur bölmələrinin qarşılıqlı qeyri-müəyyənliyindən yaranır.

Qeyri-müəyyənlik şəraitində müştərək sahibkarlığın təkmilləşdirilməsi zamanı isə rabitə proseslərində maneələr, o cümlədən informasiya təhrifləri, informasiya yüklənməsi, təşkilati strukturun qüsurları artır.

Dəqiq və əsaslı rabitə kanalları və onlar üzrə yayılan informasiya məhsuldarlığı artırır. Şirkətin işləri haqqında xəbərlər ona inamın artımına səbəb olur.

**Cədvəl 3.2. Daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemlər, həlli yolları və tövsiyələr**

| Problemlər | Həlli yolları | Tövsiyələr |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. Mühüm informasiyanın axtarışına və işlənməsinə böyük vaxt itgiləri | 1. İllik hesabatlar | 1. Dəqiq və qərəzsiz informasiya kanalları |
| 2. Bütün səviyyələrdə informasiyanın qeyri-bərabər bölgüsü | 2. Şirkətlərin internet saytları | 2.Mövcud kommunikasiya sistemlərinin modernləşdirilməsi |
| 3. İnformasiyanın qeyri-bərabər bölgüsünün nəticəsi kimi qarşılıqlı təsirlərin təşkilinin pozulması | 3.KİV-in məlumatlandırılması | 3. Bütün səviyyələrdə informasiyanın dəqiq və bərabər bölgüsü |

Beləliklə, daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Mühüm informasiyanın axtarışına və işlənməsinə böyük vaxt itkiləri.
2. Bütün səviyyələrdə informasiyanın qeyri-bərabər bölgüsü.
3. İnformasiyanın qeyri-bərabər bölgüsünün nəticəsi kimi qarşılıqlı təsirlərin təşkilinin pozulması.

Daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemlərin müvafiq həlli yolları aşağıdakılardır:

1. İllik hesabatlar.
2. Şirkətlərin internet saytları.
3. KİV-in məlumatlandırılması.

Daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemlərin aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr aşağıdakılardır:

1. Dəqiq və qərəzsiz informasiya kanalları.
2. Mövcud kommunikasiya sistemlərinin modernləşdirilməsi.
3. Bütün səviyyələrdə informasiyanın dəqiq və bərabər bölgüsü.

Həm şirkətin rəhbərliyi, və həm də ictimaiyyət tərəfindən sahibkarlıq üzərində uğurlu nəzarət etmək üçün biznes və ictimaiyyət arasında rabitənin inkişafı vacibdir. Bu, meydana çıxan problemləri vaxtında müəyyən etməyə və dəyişən şərtlərə dərhal və obyektiv reaksiya verməyə imkan verir.

## *3.2. Müştərək sahibkarlığın idarə edilməsi proseslərinin səmərəliliyinin qiymətləndirilməsinə metodiki yanaşma*

Müştərək sahibkarlığın təşkilati və idarəetmə qərarlarının effektivliyinin artırılması proqramlarının hazırlanması və həyata keçirilməsi prosesinin formalaşdırılması üçün müxtəlif amillərin idarəetmə qərarlarının qəbulu effektivliyinə təsiri təhlil edilməlidir. İdarəetmə qərarlarının formalaşmasında xarici amillərin təhlili müştərək sahibkarlığın iştirakçıları qarşısında duran

məqsədlərin prioritetlərini aşkara çıxarmağa imkan verir. Müştərək sahibkarlığın daxili struktur amillərinin təhlili təmsil olunan məqsədləri qarşılıqlı əlaqələndirir və müştərək sahibkarlığın imkanlarını qiymətləndirməyə imkan verir.

İdarəetmə qərarlarının səmərəliliyi - idarəetmə qərarlarının icrası nəticələrinin gözlənilən planlı nəticələrə uyğunluğu dərəcəsidir. İdarəetmə qərarlarının səmərəliliyi - müştərək sahibkarlıqda idarəetmə qərarlarının işlənib hazırlanması və ya həyata keçirilməsinin yekunları üzrə alınan resurs məhsuldarlığıdır.

İqtisadi səmərəlilik, yəni idarəetmə qərarının icrası nəticəsində alınan bazar dəyərini metodoloji baxımdan etibarlı müəyyən etmək çətindir [5, 10].

Qeyd etmək lazımdır ki, idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi məsələləri nəzəri və metodoloji səviyyədə hələ kifayət qədər tədqiq edilməmişdir. Əsasən səmərəlilik keyfiyyət səviyyəsində qiymətləndirilir, bu, keyfiyyət göstəriciləri sistemi ilə ifadə olunur: məhsul istehsalının həcmi, istehsal xərcləri, mənfəət və istehsal nəticələrini əks etdirən digər göstəricilər.

Dissertasiyada idarəetmə qərarlarının səmərəliliyinin müəyyən edilməsinin əsas üsulları 3.3-cü cədvəldə meyarlar sistemində birləşdirilir. İdarəetmə qərarlarının effektivliyinin müəyyən edilməsinin mövcud metodları keyfiyyət meyarları ilə, mərhələli səmərəlilik göstəriciləri ilə tamamlanır.

**Cədvəl 3.3. Müştərək sahibkarlıqda idarəetmə qərarlarının qəbulu səmərəliliyinin müəyyən edilməsinin meyarlar sistemi**

| İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi meyarları | |
|---|---|
| 1 | 2 |
| Keyfiyyət | 1) Elmi cəhətdən əsaslandırma.<br>2) Faktiki təcrübənin istifadəsi.<br>3) Xarici strukturların ekspertlərindən istifadə.<br>4) Risk dərəcəsi.<br>5) Müəssisənin yeri.<br>6) Ölkənin və regionun hüquqi şərtləri.<br>7) Regionun hakimiyyət orqanlarının mövqeyi. |
| Miqdar | 1) Son nəticələr üzrə idarəetmə qərarlarının effektivliyi.<br>2) Normativ göstərici (normalaşdırma obyektinin konkret kəmiyyət dəyərini ifadə edən dəyişən kəmiyyət).<br>3) İqtisadi göstərici (iqtisadiyyatın vəziyyətini, onun obyektlərini, onda keçmişdə, indiki və gələcəkdə baş verən prosesləri göstərir, xarakterizə edir). |
| Xüsusi | 1) Məcmu xərclərə inzibati-idarəetmə xərcləri. |

| | |
|---|---|
| | 2) İdarəedilənliyin yüklənməsi<br>3) İşçilərin ümumi sayına idarəçilik həlqəsi. |
| Sosial səmərəlilik | 1) Ölkədə ictimai-siyasi şərait.<br>2) Sosial rəyləri formalaşdıran qərarlar.<br>3) İdarəetmə qərarının işlənməsinə cəlb edilən işçilər. |
| Mərhələli səmərəlilik | 1) Problemlərin aydın başa düşülməsi.<br>2) Həllər çoxluğu.<br>3) İdarəetmə qərarlarının qiymətləndirilməsi, seçimi.<br>4) Qərarların həyata keçirilməsi proqramı.<br>5) Əks əlaqənin dəqiq kanalları. |

İdarəetmə qərarlarının işlənib hazırlanması və qəbulu prosesinin formalaşmasının iqtisadi səmərəliliyinin təhlili üçün dissertasiyada aşağıdakı keyfiyyət meyarlarından istifadə edilməsi təklif olunur:

1) Elmi cəhətdən əsaslandırma.

2) Faktiki təcrübənin istifadə edilməsi.

3) Xarici strukturların ekspertlərindən istifadə.

4) Risk dərəcəsi.

5) Müəssisənin yeri.

5.1. Əsas bazarların yaxında yerləşməsi;

5.2. Xammala və işçi qüvvəsinə asan çıxış;

5.3. İnkişaf etmiş nəqliyyat sisteminin mövcudluğu;

5.4. Əsas limanlara, terminallara, hava limanlarına asan çıxış;

5.5. Kommunal şəbəkələrinin, qaz kəmərlərinin və elektrik enerjisinin mövcudluğu və onlara çıxış;

5.6. Qabaqcıl rabitə sistemlərinin mövcudluğu;

5.7. Nüvə stansiyaların olmaması;

6). Ölkənin və regionun hüquqi şərtləri.

7). Olkə və region orqanlarının mövqeyi.

Elmi ədəbiyyatda kəmiyyət və ya iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün bir sıra metodlar məlumdur:

1) Yekun nəticələr üzrə idarəetmə qərarlarının səmərəliliyi.

2) Normativ göstərici.

3) İqtisadi göstəricilər.

3.1. investisiya əmsalı;

3.2. ÜDM;

3.3. Dövriyyəsi;

3.4. Sənaye istehsalı indeksi;

3.5. Əsas kapitala investisiyalar;

3.6. Orta aylıq əmək haqqı.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən xüsusi meyarlar aşağıdakılardır:

1) Məcmu xərclərə inzibati-idarəetmə xərcləri.

2) İdarəedilənliyin yüklənməsi

3) İşçilərin ümumi sayına idarəçilik həlqəsi.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən sosial səmərəlilik meyarları aşağıdakılardır:

1) Ölkədə ictimai-siyasi şərait.

2) Sosial rəyləri formalaşdıran qərarlar.

3) İdarəetmə qərarının işlənməsinə cəlb edilən işçilər.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən mərhələli səmərəlilik meyarları aşağıdakılardır:

1) Problemlərin aydın başa düşülməsi.

2) Həllər çoxluğu.

3) İdarəetmə qərarlarının qiymətləndirilməsi, seçimi.

4) Qərarların həyata keçirilməsi proqramı.

5) Əks əlaqənin dəqiq kanalları.

Dolayı metod inzibati idarəetmənin bazar qiymətinin tədqiqini və eyni şəraitdə işlənib hazırlanan və həyata keçirilən eyni bir obyekt növünün xüsusiyyətlərini təhlil etmək yolu ilə buna xərcləri nəzərdə tutur. İnzibati idarəetmə onun həyata keçirilməsinə qədər idarəetmə və istehsalın səviyyə çoxluğunu keçir və bunun nəticəsində bu prosesi ləngidən və ya sürətləndirən fərdi şəraitin təsiri ayrılmalıdır. Bu üsul inzibati qərarların bazar dəyərinin yerinə məhsul və xidmətlərin bazar dəyərindən istifadə etməyə imkan verir.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi üçün dissertasiyada səmərəliliyin qiymətləndirilməsinin ranq metodundan və ya nəticəlilik əmsalından (bu sahədə göstərici istifadə olunmur) istifadə edilməsi təklif olunur. Onun istifadəsi ona görə məqsədəuyğundur ki, onun əsasında fəaliyyət nəticələrinin qiymətləndirilməsinə sistemli yanaşma durur [22,31].

Bu üsulda yanaşmanın sistemliyi aşağıdakıların hesabına əldə edilir:

- əsasən sahibkarlıq strukturunun fəaliyyət yekunlarının göstəricilərini (normativ göstəricilər sistemi)  əks etdirən xeyli sayda göstəricilərin cəlb edilməsi;

- bu parametrlərin qeyri-ekvivalentliyinin  uçotu üçün onların ranjirə edilməsi.

Hər bir göstəricinin ranqı  idarə edilən dəyişənin artımına onun təsiri nəzərə alınmaqla müəyyən edilir. göstəriciləri Ranjirə edilməsində artım tempi göstəricilərindən istifadə natural və dəyər göstəricilərinin eyni vaxtda istifadə ehtimalı, eyni mövqeyə malik gəlirli biznes strukturunu zərərlə işləyən strukturla müqayisə etmək imkanı kimi üstünlükləri təmin edir.

Dissertasiyada idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı xüsusi meyarlar qeyd olunur:

1) Məcmu xərclərə  inzibati-idarəetmə xərcləri.

2) İdarəedilənliyin yüklənməsi

3) İşçilərin ümumi sayına idarəçilik həlqəsi.

Dissertasiyada idarəetmə qərarlarının aşağıdakı sosial səmərəlilik meyarlardan istifadə olunması təklif edilir:

1) Ölkədə ictimai-siyasi şərait.

2) Sosial rəyləri formalaşdıran qərarlar.

3) İdarəetmə qərarının işlənməsinə cəlb edilən işçilər.

Dissertasiyada idarəetmə qərarlarının aşağıdakı mərhələli səmərəlilik meyarlardan istifadə olunması təklif edilir:

1) Problemlərin aydın başa düşülməsi.

2) Həllər çoxluğu.

3) İdarəetmə qərarlarının qiymətləndirilməsi, seçimi.

4) Qərarların həyata keçirilməsi proqramı.

5) Əks əlaqənin dəqiq kanalları.

Müştərək sahibkarlığın strukturunda inzibati qərarların səmərəliliyinin artırılması üsulu effektiv inzibati qərarların qəbuletmə proseslərini, məhsuldar inzibati qərarların qəbulu proseslərinin yaxşılaşdırılması üçün tədqiqatları və onların həyata keçirilməsi səmərəliliyinin artırılmasını nəzərdə tutur. Metodika mümkün nəticələrin işlənməsinə və tövsiyələrin hazırlanmasına imkan verən təhlil üçün zəruri məlumatların əldə edilməsinə zəmanət verən prosedurları yaratmaq imkanı verir. Metodikanın həyata keçirilməsi qabaqcadan gələcək problemləri həll etməyə qadir olan nəzəri və praktiki nəticələr əldə etməyə imkanı verir.

Müştərək sahibkarlığın təkmilləşdirilməsi üçün müstəqil komissiya və ekspertizadan istifadə edilməsi məqsədəuyğundur. Bu məqsədlə müəyyən təşkilatlara imkan yaratmaq lazımdır ki, birgə müəssisələrin fəaliyyəti haqqında statistik məlumatları alsınlar və istehsal prosesləri üzrə öz təkliflərini vermək imkanına malik olsunlar.

Müştərək sahibkarlığın idarə olunması prosesinin effektivliyinin qiymətləndirilməsi üsulları təkcə konkret müəssisələrə deyil, həm də bütün regionlar üzrə müştərək sahibkarlığın səmərəliliyinin qiymətləndirilməsində tətbiq edilə bilər.

## *3.3. Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi mexanizminin işlənib hazırlanması*

Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi mexanizminin elmi əsaslandırılması reallığı, bilik və qərarları həyata keçirən insan haqqında bilikləri kompleks nəzərə almağı tələb edən mürəkkəb məsələdir. Hal-hazırda prosedur səmərəlilik nəzəriyyəsi ənənəvi sayılır. Bəzi tədqiqatçılar ehtimal edir ki, prosedur səmərəlilik nəzəriyyəsi texnologiyasına əməl edilməsi ilə əsaslandırılmış, effektiv qərarlar qəbul edə bilər. Eyni zamanda, bir çox tədqiqatçılar bu nəzəriyyənin əsaslandığı ilkin postulatı, insanın rasionallığı və onların fayda və xərcləri müqayisə etməklə qərarlar qəbul etməsini düzgün saymırlar.

Bu hal həmin halları nəzərə alaraq, idarəetmə qərarlarının qəbul texnologiyasının təcili modernləşdirilməsinə ehtiyac olduğunu diktə edir. Dissertasiyada qəbul edilən biznes qərarlarının təkmilləşdirilməsi üçün tövsiyələr təklif edilir. Dissertasiyada əvvəlcə qərarların qəbulu texnologiyasının təkmilləşdirilməsi proqramının işlənib hazırlanması təklif edilmişdir. Bu məsələ böyük mütəxəssislərin köməyi ilə kadrların idarə olunması şöbəsi tərəfindən həyata keçirilir. Hazır proqram baş direktorun yanında müdafiə olunduqdan sonra təsdiqlənir. Bu proqram çərçivəsində təhsil ixtisasartırma kursları kimi müdafiə olunur. Proqram həyata keçirildikdən sonra kadrların idarə olunması şöbəsi tədris prosesində heyətin aldığı bacarıqlardan istifadə üzərində nəzarət həyata keçirir, nəticələri haqqında baş direktora məruzə edilir.

Birgə müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin hazırlanması və həyata keçirilməsi prosesinin təklif olunan sxemi müdiriyyətin, elmi-tədqiqat institutlarının və medianın koordinasiyasını nəzərdə tutur. Cari sahibkarlıqdan (Amirhanov Z.S, Perminov E.V) fərqli olaraq yalnız ÜDM, investisiya dövriyyəsi və əmsalı deyil, həm də onun şəffaflığı və qarşılıqlı təsir səviyyəsi müəyyən edilir. Bu mexanizm regionlarda imkan verəcək öz inkişafını təşviq etmək üçün iş sahələri müəyyən etmək, regionlarda birgə müəssisənin səmərəliliyinin qiymətləndirilməsi səviyyəsinə əsaslanır,.

Mexanizmlər konkret funksiyalar yerinə yetirir, müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mexanizmlərin və ya proqramların meydana çıxması təbii prosesdir. Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mexanizmlər Birgə biznes fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminə biznes təşkilatlarının innovativ investisiya və maliyyə təminatı, onun mexanizminin işlənib hazırlanması və həyata keçirilməsi mərhələlərində əlaqələndirilməsi daxildir.

Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mexanizmlər innovativ təminatın əlverişli mühitini, yeniliklərin kommersiyalaşdırılması məqsədilə vəsaitlərin istehsala tətbiqi vasitəsilə investisiyalaşdırılmasını, inkişafın maliyyələşdirilməsini özündə birləşdirir.

Dissertasiyada müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mərhələli proqram təklif edilmişdir ki, burada da funksional dəstəyin bütün elementlərinin (6 komponentin) və müştərək sahibkarlıq strukturlarının inkişaf mərhələlərinin(4mərhələ) əlaqələri göstərilir.

Dissertasiyada bizim tərəfimizdən müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin və biznes fəaliyyətinin inkişaf mərhələlərinin qarşılıqlı əlaqələr proqramı işlənib hazırlanmışdır.

İndiki mərhələdə Azərbaycanda müştərək sahibkarlıq fəaliyyətinin effektiv inkişafının ləngidici amili müvafiq inkişaf proqramlarının, həm təsərrüfat subyektinin özü tərəfindən, həm də dövlət tərəfindən maliyyə nəzarətinin olmamasıdır. Bir çox şirkətlərin məqsədi isə hər hansı bir vasitə ilə mənfəətin əldə edilməsi, eyni zamanda, sosial təsir , ölkə və rayon büdcələrinin doldurulmasıdır, eləcə də ekoloji fəsadlar əhəmiyyət kəsb etmir.

Beləliklə, nəticə çıxarmaq olar ki, müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin dərin elmi tədqiqi və qiymətləndirilməsi tələb olunur. Müştərək sahibkarlığın səmərəliliyinin artırılması regionun və bütövlükdə dövlətin gələcək inkişafına və rəqabətqabiliyyətliliyinə kömək edir. İqtisadi siyasətin formalaşmasında Azərbaycanın prioritet istiqaməti müəssisələrin yüksək rəqabətqabiliyyətliliyinə nail olunması, iqtisadi fəaliyyətinin səmərəliliyinin artırılması, investisiya mühitinin yaxşılaşdırılması, birgə biznesin inkişafıdır.

Bu baxımdan, müştərək sahibkarlığın təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılması sahəsində məqsədyönlü, diqqətlə planlaşdırılan, ardıcıl innovasiya yönümlü və investisiya yönümlü proqram lazımdır.

Müəssisənin idarəetmə proseslərinin səmərəliliyinin qiymətləndirilməsi metodlarının və mexanizminin təhlili (Kutseborski E.V., Solovyev Y.Y., Zinkov D.V. və başqaları) bu təsirin kəmiyyət qiymətləndirilməsi mexanizminin tam həyata keçirilməsinə imkan verməyən ümumi nöqsanları aşkara çıxarmağa imkan verir: birincisi, baxılan alqoritmlərdən heç birində bu və ya digər sənaye bazarı müəssisəsinin spesifik xüsusiyyətləri nəzərə alınmır; İkincisi, bu metodikalarda müəssisələrin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi probleminin həlli və

onların səmərəliliyini artırılması üzrə konkret addımlar və fəaliyyət ardıcıllığı yoxdur; Üçüncüsü, müştərək sahibkarlıq fəaliyyətinə baxılmır.

Beləliklə, idarəetmə prosesinin səmərəliliyinin qiymətləndirilməsi problemi və müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin işlənib hazırlanması aktual olaraq qalır.

Dissertasiyada müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mərhələli və addım mexanizmləri təklif edilmişdir.

Mərhələ 1. Elmi ictimaiyyət tərəfindən proqramın işlənib hazırlanması:

Addım 1: Elmi-texniki innovativ qərarların axtarışı

Addım 2: Əqli mülkiyyətin qorunması

Addım 3. ilkin investisiya istiqamətinin müəyyən edilməsi

Addım 4. Yeni iş yerlərinin yaradılması üzərində investisiya imtiyazları subsidiyaları

Addım 5. Start maliyyələşmə

Addım 6. İnkubator proqramı vasitəsilə dotasiyalar alınması

Addım 7. Müştərək sahibkarlığın səmərəliliyinin artırılması üzrə istiqamətlərin işlənib hazırlanması.

Mərhələ 2. Proqramın təsdiqi

Addım 1: Elmi-texniki qərarların işlənib hazırlanması və inkişafı

Addım 2. İstehsal investisiyası istiqamətlərinin müəyyən edilməsi

Addım 3. Əlverişli investisiya mühitinin yaradılması

Addım 4. Bazar əhatəsinin mənimsənilməsi və genişləndirilməsi mərhələsi üçün maliyyələşdirmə

Addım 5: Mülkiyyətçilərin tərkibinin formalaşması

Addım 6: Maliyyə bazarları artımına giriş

Addım 7: Daxili rabitə sisteminin müasirləşdirilməsi

Mərhələ 3. Fəaliyyət

Addım 1: İnnovativ məhsulların, innovasiya proseslərinin işlənib hazırlanması, texnologiya transferi

Addım 2: Digər müəssisələrin kapitalında iştirakına uzunmüddətli

investisiyalar

Addım 3: İstehsal güclərinin inkişafının maliyyələşdirilməsi

Addım 4: Kredit resurslarına çıxış

Addım 5:Effektiv nəzarət üçün rabitənin inkişafı.

Mərhələ 4. Səmərəliliyin artırılması

Addım 1: Köhnəlmiş proseslərin dəyişdirilməsi üçün elmi-texniki qərarların axtarışı

Addım 2: Lisenziya və patent alınması

Addım 3. Biznes fəaliyyətinin yenidən istiqamətlənməsinə hədəflərin və investisiyaların müəyyən edilməsi

Addım 4. Köhnəlmiş istehsalın, dotasiya və subsidiyaların maliyyələşdirilməsi

Addım 5. Müştərək sahibkarlığın təşkili və idarə olunmasının təkmilləşdirilməsi proqramının həyata keçirilməsi.

Mərhələ 1). Layihəsini qəbulu aktuallığını qiymətləndirilməsi.

Mərhələ 2). Layihə məhsuldarlığının qiymətləndirilməsi.

Mərhələ 3). Problemlərin qiymətləndirilməsi.

Mərhələ 4). Müştərək sahibkarlığın təşkili və idarə olunmasının təkmilləşdirilməsi proqramının işlənib hazırlanması.

Təklif olunan mexanizm müştərək sahibkarlığın inkişafı üzrə qərarların qəbulunda dəstəkdir.

Azərbaycan iqtisadiyyatında qeyri-sabitlik və qeyri-müəyyənlik elementləri hələ də mövcuddur. Lakin hesab edirik ki, 2016-cı ilin dekabrında qəbul edilmiş strateji yol xəritəsi - iqtisadiyyatın effektiv inkişafının möhtəşəm planıdır. İlk növbədə qlobal dəyişikliklər üçün ölkəmizin investisiya cəlbediciliyinin artırılması zəruridir. Mühüm məsələ - potensialı investisiyanın real axınına çevirmək və potensial investorlar ilə işi intensivləşdirməkdir.

Sahibkarlığın səmərəliliyinin artırılması proqramının formalaşması üçün istehsalın, bazarın, investisiya mühitinin və s. amillərin güclü və zəif tərəflərinin aydın başa düşülməsi lazımdır.

Müasir şəraitdə investisiya layihələri üzrə məlumatların yayılması aşağıdakıların aradan qaldırılmasını tələb edir:

1. Şəffaflığın olmamasını.
2. İnvestisiya layihələrinin vahid reyestrinin olmamasını.
3. İnformasiyanın yayılmasının vahid formasının olmamasını.
4. İnvestorlar üçün çətin çıxışları.

Nəticədə, müəyyən edilmişdir ki, müştərək sahibkarlığın fəaliyyəti ilə bağlı investisiya və innovasiya layihələri haqqında məlumatların birgə müəssisələrin fəaliyyətləri barədə məlumatların operativ emal edilməsi məqsədilə birgə müəssisələrin uçotu üzrə fəaliyyətin avtomatlaşdırılmasına ehtiyacı vardır ki, bu da birgə müəssisələrin fəaliyyəti üzrə informasiyalara, vergi güzəştlərinə və s. çıxışı sadələşdirir. Bunun əsasında müvafiq informasiya bazası tərtib olunur.

İnformasiyanın uçotu üzrə məlumatlar bazası üstünlüklərə və mənfi cəhətlərə malikdir.

Üstünlükləri:

- Məlumatların izafiliyinin azaldılması.
- Yenilənmə səhvlərinin azaldılması, ardıcıllığın təkmilləşdirilməsi.
- Məlumatların bütövlüyü və tətbiqi proqramlardan asılı olmaması.
- Bir məlumat bazasının və sorğu dilindən istifadə etməklə istifadəçilər üçün məlumatlara çıxışın təkmilləşdirilməsi .
- Məlumatların təkmilləşdirilmiş təhlükəsizliyi.
- Məlumatların daxil edilməsinin, saxlanması və axtarış xərclərinin əməktutumluğunun azaldılması.
- Yeni proqram təminatının inkişafına kömək.

Mənfi cəhətləri:

- Məlumatlar bazası kompleks, mürəkkəb, çətin və əməktutumlu işləmədir.
- Əhəmiyyətli ilkin avadanlıq və proqram təminatı xərcləri.
- Məlumatlar bazasının zədələnməsi demək olar ki, bütün proqramlara təsir göstərir.

- Kağız məlumatlar bazasının rəqəmsal sistemlərə yerləşdirilməsinə böyük xərclər.

- Bütün proqramçılar və istifadəçilər üçün məcburi ilkin təhsil.

Bu predmet sahəsinin funksiyaları aşağıdakı vəzifələri çərçivəsində yerləşir:

- firmaların nəzarət və uçotu;
- şirkətin fəaliyyəti haqqında geniş məlumat verilməsi;
- şirkətlər haqqında daxil olan məlumatlar emalı.

Müştərək sahibkarlığın təşkilati və idarə edilməsi qərarlarının səmərəliliyinin artırılması proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi mexanizminin formalaşması sxeminin əsasında tələb olunan sənədlərin siyahısını tərtib etmək olar:

- Müqavilə;
- Əksagentlərin siyahısı;
- Proqram;
- Layihə.

Yuxarıda göstərilən bu problemin həyata keçirilməsi üçün aşağıdakı məsələləri müəyyən etmək lazımdır:

1. İnformasiya bazasının daxil edilməsi və dəstəklənməsi. Problemin mahiyyəti məlumat bazasının aktuallaşmasından ibarətdir.

2. Monitorinq və müvafiq məlumatların təhlili. Problemin mahiyyəti ilkin məlumatların kifayət qədər geniş əhatəsində məlumatların seçilməsindən ibarətdir.

Bu işdə pul vəsaitlərinin uçotu zamanı bu proqramın mümkün tətbiqinə baxılmışdər. Bu həm də hər hansı bir təşkilatın müxtəlif fəaliyyət növləri ilə bağlı bir çox digər sənədlərə aiddir.

Məqsədyönlü fəaliyyət kimi müştərək sahibkarlığın idarə edilməsinin səmərəliliyinin artırılması üzrə tövsiyələrin hazırlanması prosesin üçün həm də bu prosesin təşkilinin normaları, qaydaları, metodları, üsulları, formaları tələb olunur. Bütövlükdə bu, özündə həmin prosesin şüurlu nəzarət, tənzimlənmə aparatını ehtiva edir ki, bu da nəzərdə tutulan məqsədə nail olmağa imkan verir.

# NƏTİCƏ

**1.** Müştərək müəssisələrin yaradılmasının məqsədi tərəfdaşları üçün uzunmüddətli gəlir imkanlarının yaxşılaşdırılmasından ibarətdir. Müştərək sahibkarlığın əsas məqsədi yalnız tərəfdaşların qarşılıqlı təsiri zamanı yerinə yetirilə bilən hədəflərə nail olmanın nəticəsidir. Müştərək sahibkarlığın ümumi məqsədi tərəfdaşlar tərəfindən uzunmüddətli mənfəət alınması imkanlarının təkmilləşdirilməsini nəzərdə tutur ki, bu da çoxsaylı üsullarla əldə edilə bilər:

- yeni mənimsənilməmiş bazarlara girişlə;
- səmərəliliyinin artırılması və xərclərin azaldılması ilə;
- bazarda vəziyyətin yaxşılaşdırılması yolu ilə rəqabətqabiliyyətliliyin artırılması ilə;
- tərəfdaşları arasında bölgüsü yolu ilə risklərin azaldılması ilə.

**2.** Müştərək müəssisələri aşağıdakı müxtəlif əlamətlərə görə təsnifləşdirmək olar:

1. Yerləşdiyi yerə görə:
   - sənaye cəhətdən inkişaf etmiş ölkələr;
   - inkişaf etməkdə olan ölkələr.
2. Mülkiyyət formalarına görə:
   - yalnız özəl kapitalın iştirakı ilə;
   - özəl firmaların və dövlət müəssisələrinin iştirakı ilə;
   - milli və beynəlxalq təşkilatların iştirakı ilə.
3. Tərəfdaşların iştirak payına görə:
   - paritet başlanğıclarla yaradılmış müəssisələr;
   - xarici kapitalın üstün iştirakı ilə yaradılmış müəssisələr;
   - xarici tərəfdaşın az iştirak payı olan müəssisələr.
4. Fəaliyyət növlərinə görə:
   - elmi-tədqiqat xarakterli müştərək müəssisələr;
   - istehsal xarakterli müştərək müəssisələr;
   - tədarükçü müştərək müəssisələr;
   - satış müştərək müəssisələri;

- kompleks müştərək müəssisələr.

5. İştirakın xarakterinə görə:

- bütün iştirakçılar idarəetmədə fəal iştirak edirlər;

- kapital qoyuluşlarının maliyyələşdirilməsində passiv iştirakı istisna olmaqla bütün tərəflərin iştirakı.

**3.** Müştərək müəssisələrin xüsusiyyətlərini ümumi və xüsusi olmaqla iki qrupda birləşdirmək olar:

1. Ümumi:

- tərəfdaşlardan hər birinin kapitala töhvəsi olan aktivlərin (vəsaitlərin, əsas fondların,intellektual mülkiyyətin və s.) qismən birləşdirilməsi;

- hər bir tərəfdaşın idarəetmə orqanlarının köməyilə həyata keçirilən idarəetmə və ris;klərlə bağlı məsuliyyətin bölüşdürülməsi;

- hər bir tərəfdaşın öz istehsal fərdiliyinin saxlanması;

- hər bir tərəfdaşın kapital qoyuluşuna uyğun olaraq sahibkarlıq mənfəətinin və risklərinin bölüşdürülməsi;

- birgə müəssisələrin yaradılmasında iştirak edən kapitalların müxtəlif "milliliyi";

- tərəfdaşlar arasında müqavilə;

- tərəfdaşların kapital qoyuluşu formalarının müəyyən edilməsi;

- sahibkarlıq fəaliyyətinin həyata keçitilməsi;

- maraqların ümumiliyi;

- müştərək müəssisə üzərində nəzarəti təmin edən payın müəyyən edilməsi;

- iştirak payının məsuliyyətinin məhdudlaşdırılması;

- fəaliyyət dövrünün (məhdud və ya qeyri məhdud) müəyyən edilməsi.

2. Xüsusi:

- daha təkmil avadanlığın köməyilə yeni texnologiyaların mənimsənilməsi;

- ölkələrin məhdud imkanları şəraitində qərb texnologiyalarının istehsal prosesinə inteqrasiyası;

- istehsala investisiyaların artırılması;

- istehsalın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;

- vacib gəlirlər mənbəyinin ya öz məhsulunun ixracı hesabına, ya da müxtəlif xidmət növlərinin təqdim olunması hesabına möhkəm valyuta ilə alınması.

**4.** Müştərək müəssisənin təşkili müxtəlif cür motivasiya olunur və adətən firmanın biznes strategiyasının əksər istiqamətlərini əhatə edir, belə ki, strategiyada adətən səbəblər olur, odur ki, işdə tərəfimizdən motivasiyanın üç qrupu verilir.

1. Mühüm istehsal anlarının əldə edilməsi. Birgə müəssisələrin əksəriyyəti tərəfdaşların müəyyən növ resurslara ehtiyacı olması ilə bağlıdır. Adətən bunlar iqtisadi resursları, məhsuldar qüvvələr, xammal və texnologiyalardır.

2. Birgə sahibkarlıqda bazar səbəbləri böyük əhəmiyyət kəsb edir, belə ki, onlardan istehsal və satış imkanlarının genişləndirilməsi asılıdır.

3. Riskin bölünməsinə elmi-tədqiqat və araşdırmalar sahəsində, eləcə də böyük start investisiyaları tələb edən sahələrdə fəaliyyət göstərən firmalar müraciət edirlər, nəticəi isə qabaqcadan xəbər vermək çətindir.

**5.** Dissertasiyada beynəlxalq kooperasiyanın istehlak və istehsala müsbət təsirinin əsas istiqamətlərinə aşağıdakılar aid edilmişdir:

- innovasiyaların (araşdırmanın, tədqiqatın, istehsalın, satışın, satışdan əvvəlki və satışdan sonrakı xidmətlərin) inteqrasiyası;

- innovasiyaların və rəqabətin dinamizminin artırılması, elmi-texniki tərəqqinin sürətləndirilməsi;

- investisiya və elmi-texniki xərclərin azaldılması, aralıq məhsul istehsalçısı şirkətlərinin məhsul və texnologiyalarının təzələnməsi müddətlərinin qısaldılması, cari istehsal xərclərinin azaldılması;

- müştərək sahibkarlıq fəaliyyətinin intensivləşdirilməsi, müqavilə və institutsional formaların (SC, konsernlər və s.) geniş seçimi;

- xarici kapitalın milli iqtisadiyyata cəlb olunmasının mümkün mənfi nəticələrinin nizamlanması, onun xammal sferasına müdaxiləsinin qarşısının alınması, kooperasiyanın gedişi zamanı yaradılan məhsulların rəqabətqabiliyyətliyinin artırılmasına yönəldilməsi.

**6.** Transmilli biznesin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, TMK-lar dünya bazarının ehtiyaclarını nəzərə almaq və öz məhsullarının istehsalına qədər xeyli dərəcədə tələb formalaşdırmaq imkanına malikdirlər. Belə ki, üstün inhisar mənfəətinin reallaşdırılması yalnız istehsal ölçülərinin bu məhsullara mövcud ictimai tələbata və artıq formalaşmış istehsal gücünə uyğun olaraq şüurlu məhdudlaşdırılması zamanı mümkündür, onda korporasiyaların yaratdığı bu çərçivələr TMK-ların özlərinin mövcudluğu üçün zəruri şərtə çevriləcəkdir.

**7.** TMK-nın inkişafının mərhələli təhlili belə bir nəticəyə gətirib çıxarır ki, transmilli korporasiyalar dünya iqtisadiyyatının qloballaşmaya doğru irəliləməsini sürətləndirir, bu isə müasir şəraitdə onun xarakterinin əhəmiyyətli dərəcədə dəyişiminə səbəb olur. Artıq XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının yalnız dörddə biri sərbəst bazar şəraitində, dörddə üçü isə özünəməxsus planlı sistemdə fəaliyyət göstərir ki, burada da TMK daxilində azad bazar qanunları işləmir və daxili (transfer) qiymətlər korporasiyaların özləri tərəfindən müəyyən edilir. Nəticədə, özündə planlaşdırma və bazar prinsiplərini birləşdirən konvergent iqtisadi sistemə keçid baş verir.

**8.** TMK-nın mərhələli təhlili dünya iqtisadiyyatının aşağıdakı transmilliləşmə meyllərini aşkara çıxarmağa imkan verir:

• dünya iqtisadiyyatında əsas oyunçulara çevrilən ən iri korporasiyaların sürətli inkişafı (o cümlədən TMK-nın filial şəbəkəsinin artımı hesabına);

• dünya fond bazarının inkişafı və strateji ittifaq mexanizminin istifadəsi vasitəsilə TMK-ların və onların öz məhsullarını ana ölkəyə “bağlılığı” dərəcəsinin azaldılması;

• kapitalın təmərküzləşdirilməsi, bazar iqtisadiyyatı şəraitində o, istehsal xərclərinin azaldılmasını, ETTKİ-nin daha yaxşı həyata keçirilməsi imkanını, səmərəli reklamı, əlavə məsrəflərin və digər xərclərin minimuma endirilməsini təmin etməklə rəqabət mübarizəsində sağ qalmaq amili sayılır;

• iqtisadiyyatın beynəlmiləlləşməsinin və dünya bazarının inkişafının nəticəsi kimi TMK-nın formalaşması və inkişafı;

• kapitalın transmilliləşməsi bütün müasir iqtisadiyyatın institusional inkişafının xarakterik xüsusiyyəti olur.

**9.** Tədqiqatlardan aydın olur ki, qlobal maliyyə böhranının bəzi fəsadlarına rəğmən, hazırda ölkəmizdə əlverişli investisiya mühiti mövcuddur. Azərbaycanda həm yerli, həm də xarici investorların sərmayələri qorunur. Təsadüfi deyildir ki, adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan uzun illərdir ki, MDB məkanında birinci yerdədir. Statistik məlumatların təhlili göstərir ki, 2004-2015-ci illər ərzində ölkədə ÜDM istehsalı təxminən 3 dəfə artmış, iqtisadiyyata 169,4 mlrd. manat və ya 202,9 mlrd. dollar həcmində sərmayə qoyulmuşdur. Təkcə 2015-ci ildə ölkə iqtisadiyyatına 19,6 mlrd. dollar sərmayə yatırılmışdır.

**10.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, 2007-ci ilə kimi Azərbaycanın iqtisadiyyatına qoyulmuş investisiyalarda birbaşa xarici investisiyaların mühüm mənbə olması müşahidə olunsa da, həmin dövrdən etibarən daxili investisiyanın fəallığının dövlət maliyyənin hesabına yüksəlməsi baş vermişdir. Nəticədə, respublikada birbaşa xarici investisiyaların əsasında formalaşan əsas kapital xüsusi çəki baxımından ÜDM-in tərkibində azalaraq regionun ortalama göstəricindən geri qalmışdır. 2014-cü ilin statistik məlumatlarına görə, Azərbaycan üzrə birbaşa xarici investisiyaların ÜDM-də payı 25 faiz olmuşdursa, bu göstərici Gürcüstan üzrə 74 faizə, Qazaxıstan üzrə 61 faizə, Türkmənistan üzrə 55 faizə, Ukrayna üzrə 49 faizə, Qırğızıstan üzrə 48 faizə və Moldova üzrə 46 faizə bərabər olmuşdur.

2004-cü ildən 2015-ci ilə qədər olan dövrdə Azərbaycana 52 milyard ABŞ dollarında BXİ qoyulmuşdur ki, ondan da 85 faiz neft sektoru üçün, 15 faiz qeyri–neft sektoru üçün istifadə edilmişdir. Bu dövr ərzində qeyri-neft sektoru üçün nəzərdə tutulan BXİ pay etibarilə kiçik olsa da, artım sürətinə görə böyük templə inkişaf etmişdir. Statistik məlumatlara görə, BXİ üzrə bütövlükdə orta illik artım tempi 8,2 faizə bərabər olmuşsa, qeyri–neft sektorunda bu göstəricinin 32,5 faiz

təşkil etdiyi müşahidə olunur. Lakin artım sürətinin yüksəkliyi olsa da, bu sektora yönəldilmiş BXİ-nin həcmi cari imkanlardan hələlik geridir.

**11.** Dissertasiyada müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə təsirli tədbirlərin qəbuluna mane olan səbəblərin axtarılması istiqamətində aparılan tədqiqatlar əsasında bizim tərəfimizdən əsas maneələr müəyyənləşdirilmişdir.

Bu problemlər daxili və xarici problemlərə bölünür, çünki xarici problemləriin həlli zamanı dövlət səviyyəsində hökumətin müdaxiləsi tələb olunur. Daxili problemlər isə öz növbəsində, yalnız regional səviyyədə müdaxiləni tələb edir, lakin həm də dövlət səviyyəsində müdaxiləni istisna etmir.

Burada xarici problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müştərək müəssisələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının zəif inkişafı ;

2. Ölkə və regional səviyyədə müştərək müəssisələrin təşkili və idarəetmə mexanizminin olmaması;

3. Müştərək sahibkarlıq üzrə vahid məlumatlar bazasının olmaması;

4. Kifayət qədər inkişaf etməyən işgüzar və istehsal infrastrukturu;

5.Yüksək kreditləşmə riskləri.

Daxili problemləri isə aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Müştərək müəssisələrin təşkilinə yüksək xərclər;

2.Mövcud istehsalların aşağı rəqabətqabiliyyətliyi və rentabelliyi;

3. İnvestorların, sahibkarlıq strukturları rəhbərliyinin passivliyi;

4. Daxili kommunikasiyaların zəif inkişaf etmiş sistemi;

5. Müsbət xarici təcrübəyə kifayət qədər olmayan istiqamətlənmə və müştərək sahibkarlığın idarə edilməsinin aşağı elmi əsaslandırılma;

6. Müştərək müəssisələrin təşkili üzrə idarəetmə qərarlarının qəbulunun yüksək riskləri.

**12.** İşdə müştərək sahibkarlığın təkmilləşdirilməsi məhsuldarlığının artırılması üzrə hər bir istiqamət hərtərəfli araşdırılmışdır. Dissertasiyada məqsədi uğurlu qırarların qəbulu və monitorinqin sadələşdirilməsi olan müştərək

sahibkarlığın idarə edilməsinin yaxşılaşdırılması metodologiyası hazırlanmışdır.

Müştərək sahibkarlığın təşkili və idarə edilməsi metodikası hər hansı bir investisiya layihəsinin 3 addımdan ibarət təşkilini nəzərdə tutur. Əlbəttə hər bir addımda maneələr və onların həlli yolları ola bilər.

Addım 1: təşkilati mərhələ.

Addım 2. Müəssisənin yaradılması prosesi.

Addım 3: Nəticələr.

Metodika işin 2 mühüm istiqamət üzrə aparılmasını nəzərdə tutur:

1. Müştərək sahibkarlığın idarə edilməsi məhsuldarlığının artırılması (xərclərin azaldılması və idarəetmə prosesinin sürətləndirilməsi).

Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi üzrə maneələri aradan qaldırmaq üçün bazarın aşağıdakı aktual şərtlərinə daha çox diqqət etmək lazımdır:

- birgə müəssisənin təzə layihəsinin təşkili;
- bazar şəraitinin dəyişməsi ilə;
- bazarda rəqabəti artırmaqla.

**13.** Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi səmərəliliyinin artırılması üzrə əsas istiqamətlər aşağıdakılardır:

1. İdarəetmə qərarının səmərəli qəbulu prosedurunun zəruriliyi.
2. Problemlərin dəqiq qoyuluşu.
3. İnzibati resursun istifadəsinin səmərəliliyi.
4. Bazarın rəqabətliliyi.
5. Elmi tədqiqatlar.

Müştərək sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi səmərəliliyinin artırılması üzrə tövsiyələr aşağıdakılardır:

1.Yenidən hazırlıq və ixtisasın artırılması kursları (bütün səviyyələrdə).

2. Elmi nəşrlər.

3. İctimai rəyin monitorinqi.

4. Monitorinq, təhlil, proqnoz.

5. Səmərəliliyin artırılması

**14. D**axili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Mühüm informasiyanın axtarışına və işlənməsinə böyük vaxt itgiləri.
2. Bütün səviyyələrdə informasiyanın qeyri-bərabər bölgüsü.
3. İnformasiyanın qeyri-bərabər bölgüsünün nəticəsi kimi qarşılıqlı təsirlərin təşkilinin pozulması.

Daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemlərin müvafiq həlli yolları aşağıdakılardır:

1. İllik hesabatlar.
2. Şirkətlərin internet saytları.

3.KİV-in məlumatlandırılması.

Daxili kommunikasiya sisteminin modernləşdirilməsi üzrə əsas problemlərin aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr aşağıdakılardır:

1. Dəqiq və qərəzsiz informasiya kanalları.

2.Mövcud kommunikasiya sistemlərinin modernləşdirilməsi.

3. Bütün səviyyələrdə informasiyanın dəqiq və bərabər bölgüsü.

**15.** İdarəetmə qərarlarının işlənib hazırlanması və qəbulu prosesinin formalaşmasının iqtisadi səmərəliliyinin təhlili üçün dissertasiyada aşağıdakı keyfiyyət meyarlarından istifadə edilməsi təklif olunur:

1) Elmi cəhətdən əsaslandırma.

2) Faktiki təcrübənin istifadə edilməsi.

3) Xarici strukturların ekspertlərindən istifadə.

4) Risk dərəcəsi.

5) Müəssisənin yeri.

5.1. Əsas bazarların yaxında yerləşməsi;

5.2. Xammala və işçi qüvvəsinə asan çıxış;

5.3. İnkişaf etmiş nəqliyyat sisteminin mövcudluğu;

5.4. Əsas limanlara, terminallara, hava limanlarına asan çıxış;

5.5. Kommunal şəbəkələrinin, qaz kəmərlərinin və elektrik enerjisinin mövcudluğu və onlara çıxış;

5.6. Qabaqcıl rabitə sistemlərinin mövcudluğu;

5.7. Nüvə stansiyaların olmaması;

6). Ölkənin və regionun hüquqi şərtləri.

7). Olkə və region orqanlarının mövqeyi.

**16.** İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən xüsusi meyarlar aşağıdakılardır:

1) Məcmu xərclərə inzibati-idarəetmə xərcləri.

2) İdarəedilənliyin yüklənməsi

3) İşçilərin ümumi sayına idarəçilik həlqəsi.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən sosial səmərəlilik meyarları aşağıdakılardır:

1) Ölkədə ictimai-siyasi şərait.

2) Sosial rəyləri formalaşdıran qərarlar.

3) İdarəetmə qərarının işlənməsinə cəlb edilən işçilər.

İdarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən mərhələli səmərəlilik meyarları aşağıdakılardır:

1) Problemlərin aydın başa düşülməsi.

2) Həllər çoxluğu.

3) İdarəetmə qərarlarının qiymətləndirilməsi, seçimi.

4) Qərarların həyata keçirilməsi proqramı.

5) Əks əlaqənin dəqiq kanalları.

**17.** Dissertasiyada idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı xüsusi meyarlar qeyd olunur:

1) Məcmu xərclərə inzibati-idarəetmə xərcləri.

2) İdarəedilənliyin yüklənməsi

3) İşçilərin ümumi sayına idarəçilik həlqəsi.

Dissertasiyada idarəetmə qərarlarının aşağıdakı sosial səmərəlilik meyarlardan istifadə olunması təklif edilir:

1) Ölkədə ictimai-siyasi şərait.

2) Sosial rəyləri formalaşdıran qərarlar.

3) İdarəetmə qərarının işlənməsinə cəlb edilən işçilər.

Dissertasiyada idarəetmə qərarlarının aşağıdakı mərhələli səmərəlilik meyarlardan istifadə olunması təklif edilir:

1) Problemlərin aydın başa düşülməsi.

2) Həllər çoxluğu.

3) İdarəetmə qərarlarının qiymətləndirilməsi, seçimi.

4) Qərarların həyata keçirilməsi proqramı.

5) Əks əlaqənin dəqiq kanalları.

**18.** Müştərək sahibkarlığın strukturunda inzibati qərarların səmərəliliyinin artırılması üsulu effektiv inzibati qərarların qəbuletmə proseslərini, məhsuldar inzibati qərarların qəbulu proseslərinin yaxşılaşdırılması üçün tədqiqatları və onların həyata keçirilməsi səmərəliliyinin artırılmasını nəzərdə tutur. Metodika mümkün nəticələrin işlənməsinə və tövsiyələrin hazırlanmasına imkan verən təhlil üçün zəruri məlumatların əldə edilməsinə zəmanət verən prosedurları yaratmaq imkanı verir. Metodikanın həyata keçirilməsi qabaqcadan gələcək problemləri həll etməyə qadir olan nəzəri və praktiki nəticələr əldə etməyə imkanı verir.

**19.** Müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mexanizmlər innovativ təminatın əlverişli mühitini, yeniliklərin kommersiyalaşdırılması məqsədilə vəsaitlərin istehsala tətbiqi vasitəsilə investisiyalaşdırılmasını, inkişafın maliyyələşdirilməsini özündə birləşdirir. Dissertasiyada müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mərhələli proqram təklif edilmişdir ki, burada da funksional dəstəyin bütün elementlərinin (6 komponentin) və müştərək sahibkarlıq strukturlarının inkişaf mərhələlərinin(4mərhələ) əlaqələri göstərilir.

Dissertasiyada bizim tərəfimizdən müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin və biznes fəaliyyətinin inkişaf mərhələlərinin qarşılıqlı əlaqələr proqramı işlənib hazırlanmışdır.

**20.** Dissertasiyada müştərək sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mərhələli və addım mexanizmləri təklif edilmişdir.

Mərhələ 1. Elmi ictimaiyyət tərəfindən proqramın işlənib hazırlanması:

Addım 1: Elmi-texniki innovativ qərarların axtarışı

Addım 2: Əqli mülkiyyətin qorunması

Addım 3. ilkin investisiya istiqamətinin müəyyən edilməsi

Addım 4. Yeni iş yerlərinin yaradılması üzərində investisiya imtiyazları subsidiyaları

Addım 5. Start maliyyələşmə

Addım 6. İnkubator proqramı vasitəsilə dotasiyalar alınması

Addım 7. Müştərək sahibkarlığın səmərəliliyinin artırılması üzrə istiqamətlərin işlənib hazırlanması.

Mərhələ 2. Proqramın təsdiqi

Addım 1: Elmi-texniki qərarların işlənib hazırlanması və inkişafı

Addım 2. İstehsal investisiyası istiqamətlərinin müəyyən edilməsi

Addım 3. Əlverişli investisiya mühitinin yaradılması

Addım 4. Bazar əhatəsinin mənimsənilməsi və genişləndirilməsi mərhələsi üçün maliyyələşdirmə

Addım 5: Mülkiyyətçilərin tərkibinin formalaşması

Addım 6: Maliyyə bazarları artımına giriş

Addım 7: Daxili rabitə sisteminin müasirləşdirilməsi

Mərhələ 3. Fəaliyyət

Addım 1: İnnovativ məhsulların, innovasiya proseslərinin işlənib hazırlanması, texnologiya transferi

Addım 2: Digər müəssisələrin kapitalında iştirakına uzunmüddətli investisiyalar

Addım 3: İstehsal güclərinin inkişafının maliyyələşdirilməsi

Addım 4: Kredit resurslarına çıxış

Addım 5:Effektiv nəzarət üçün rabitənin inkişafı.

Mərhələ 4. Səmərəliliyin artırılması

Addım 1: Köhnəlmiş proseslərin dəyişdirilməsi üçün elmi-texniki qərarların axtarışı

Addım 2: Lisenziya və patent alınması

Addım 3. Biznes fəaliyyətinin yenidən istiqamətlənməsinə hədəflərin və investisiyaların müəyyən edilməsi

Addım 4. Köhnəlmiş istehsalın, dotasiya və subsidiyaların maliyyələşdirilməsi

Addım 5. Müştərək sahibkarlığın təşkili və idarə olunmasının təkmilləşdirilməsi proqramının həyata keçirilməsi.

Mərhələ 1) Layihəsini qəbulu aktuallığını qiymətləndirilməsi.

Mərhələ 2) Layihə məhsuldarlığının qiymətləndirilməsi.

Mərhələ 3) Problemlərin qiymətləndirilməsi.

Mərhələ 4) Müştərək sahibkarlığın təşkili və idarə olunmasının təkmilləşdirilməsi proqramının işlənib hazırlanması.

Təklif olunan mexanizm müştərək sahibkarlığın inkişafı üzrə qərarların qəbulunda dəstəkdir.

## İstifadə olunan ədəbiyyat


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2016, 428 s.

3. Алле М. экономика как наука: пер. с фр. /М. 1995. – 195 с.

4. Антология экономической классики. В. Петти, А. Смит, Д. Рикардо / М., 1993. – 231 с.

5. Асаул. А.Н., Песоцкая Е.В., Томилов В.В. Оценка эффективности предпринимательской деятельности / Гуманитарные науки, 1997, №2. – 195 с.

6. Бабаева А.А. Направления влияния деятельности транснациональных компаний на экономику принимающих стран // Гуманитарные и социально-экономические науки. - 2013. - №5. - С. 150-153. 2.2

7. Балацкий Е.В. Финансовая несостоятельность регионов и межбюджетные отношения/ Е.В. Балацкий, Н.А. Екимова// Капитал страны. Федеральное интернет-издание. – Режим доступа: http://www.capital-rus.ru

8. Бегг Д., Фишер С., Дорнбуш Р. 32.4/5. Moderate Keynesians, Extreme Keynesians // Economics. — 8. — The McGraw Hill Companies, 2005. — С. 557 - 560. — 674 с

9.Владимирова И.Г. Исследование уровня транснациональности компаний. Менеджмент в России и за рубежом, № 6, с. 99-114, 2001 1.3-2

10. Внешнеэкономическая деятельности в Новгородской области. 2011: Статистический сборник/Новгородстат. - В.Н. 2011 - 97 с.

11. Гневко В.А. Управление экономическим развитием народнохозяйственного комплекса: монография / В. А. Гневко ; Ин-т управления и экономики. - СПб. : Изд-во Ин-та управления и экономики, 2002. - 367 с.

12. Горфинкель В.Я., Поляк Г.Б. , Швандар В.А. Предпринимательство: Учебник для вузов / Под ред. проф. В.Я. Горфинкеля, проф. Г.Б. Поляка, проф. В.А. Швандара. — 3-е изд., перераб. и доп. — М: ЮНИТИ-ДАНА, 2001. — 581 с.

13. Гукасьян Г., Маховикова Г. "Экономическая теория: учебник" М.:Эксмо 2011. – 243 с.

14. Евдокимов А. И.«Международный маркетинг-менеджмент» Учебное пособие. под. ред. Евдокимова А. И. СПб.: Изд-во СПбГУЭФ, 2005. – 431 с.

15. Журкин В.В. Европейский союз: внешняя политика, безопасность, оборона.: М. – 1998. – 241 с.

16. Крылова А.А. Роль транснациональных компаний в экономике // Научные аспекты глобализационных процес- сов. Сборник статей Международной научно-практической конференции. г. Уфа, Республика Башкортостан - 2014. - С. 30-32. 2.2

17. Круглов В.В. Основы международных валютно-финансовых и кредитных отношений: учеб./ научн. ред. д-р эконом. наук, профессор В.В. Круглов. М.: ИНФРА-М, 1998. – 356 с.

18. Лапуста М.Г. Предпринимательство: Учебник. — М.: ИНФРА-М, 2009. — 608 с. — (Высшее образование).

19. Мильнер Б.З. Евенко Л.И. Рапопорт В.С. Системный подход к организации управления.- М. Экономика. 1983. –225 с.

20. Михайлушкин А.И., Шимко П.Д. Экономика транснациональной компании. Учеб. Пособие для вузов. М., Высш. Шк., 335 с., 2005.

21. Муравьев А.И., Игнатьев А.М., Крутик А.Б. Предпринимательство: Учебник. — СПб.: Издательство «Лань», 2001. — 696 стр.

22. Мэнкь. Н.Г. Макроэкономика: пер. с англ. М., 1994. – 355 с.

23. Оптнер С. Системный анализ для решения деловых и промышленных проблем М.: Советское радио, 1969 г. – 243с.

24. Поляков В.В., Щенина Р.К. Мировая экономика и международный бизнес. М., КноРус, 656 с., 2005.1.3-9

25. Попов С.А. Актуальный стратешгический менеджмент: учеб.-практич. Пособие. - М.: Изд-во Юрайт;ИД Юрайт, 2010. - 488 с.

26. Предпринимательство: Учебник для вузов / Под ред. проф. В.Я. Горфинкеля, проф. Г.Б. Поляка, проф. В.А. Швандара. — 3-е изд., перераб. и доп. — М: ЮНИТИ-ДАНА, 2001. — 581 с.

27. Прокушев Е.Ф. Внешнеэкономическая деятельность: учеб. пособие. М., 1999. – 243с.

28. Райзберг Б.А., Лозовский Л.Ш., Стародубова Е.Б. Современный экономический словарь – М.: ИНФРА-М, 1997 – 496 с.

29. Самусенко Д.Н. Географический анализ процессов прямого инвестирования в современном мировом хозяйстве // Вестник Московского университета. Серия 5: География. - 2014. - №1. - С. 42-48. 2.2

30. Самуэльсон Пол А., Нордхаус Вильям Д. Экономика: пер. с англ. М., 2000. – 432с.

31. Семеко Г.В. Совместное предпринимательство: Учебное пособие/Автор-составитель Г.В. Семеко, канд. экон. наук. — М.: ИКД «Зерцало-М», 2004. - 120 с.

32. Семенов К.А. Международная экономическая интеграция: учеб. пособие. М.: Логос, 2001. – 351с.

33. Томпсон А.А., Стрикленд А. Дж. Стратегический менеджмент. Искусство разработки и реализации стратегии. - М.: ЮНИТИ. - 1998. -576с.

34. Шумпетер Й.А. Теория экономического развития: пер. с нем. - М.: Прогресс, 1982. - 213с.

35.Шмиттгофф Клайв М. Экспорт: право и практика международной торговли. 1.3-6

36. Яблукова Р.З. Международные экономические отношения. учебное пособие. проспект. М., 2006.- 288 с.

37.Richard E. Caves, Multinational Enterprise and Economic Analysis, 2007

38.G.K. Helleiner, Transnational corporations and direct foreign investment, 1989

**Bahmanli Shaig Famil's son**

## The problems of joint enterprise's development


### Summary

There is no doubt about the relevance of the research topic. In Azerbaijan attaches great importance in the goverment level for the problems of development investment climate and joint enterprise, because today, which is very important for our country in general positive impact to the economic development of the country and its regions.

In the first chapter of the thesis titled "The theoretical and methodological approaches to the formation and development of joint enterprises" was investiaged specific features of the formation and development of joint enterprises, was estimated management and development of joint enterprises as a key factor in international cooperation, were determined the characteristic features of transnational corporations.

In the second chapter of the thesis titled "Asssesment the current state, development trends and management of joint enterprises" was analyzed current state and development trends of enterprises in Azerbaijan, revealed the modern features of joint enterprises's development and management, assessed the modern development trends of direct foreign investment.

And In the third chapter of thesis titled "Improving the assesment prosess of management efficiency of joint enterprises" was reviewed increasing trends of the effectiveness of decisions on the improving the management of joint enterprise, was given the author's approach to the assessment effectiveness of process joint enterprises management, was developed the improve mechanism of joint enterprises activity's efficiency.

At the end of thesis was given the appropriate suggestions and recommendations about the elimination of joint enterprises's development problems.

**Гулиев Шаиг Фамиль оглы**

## Проблемы развития совместного предпринимательства

### Резюме

Актуальность темы исследования не вызывает сомнения. Вопросам развития инвестиционного климата и совместного предпринимательства уделяется большое внимание на уровне правительства Азербайджанской Республики, потому что это очень важно для нашей страны, оказывает положительное влияние на развитие экономики страны и ее регионов.

Во введении диссертации обоснована актуальность темы, сформированы цель и задачи исследования, даны объекты и предметы, теоретические и методологические основы, базы информаций, раскрыты научной новизны и практической значимости исследования.

В первой главе диссертации называемой «Теоретико-методологические подходы к формированию и развитию совместного предпринимательства» исследованы характерные особенности формирования и развития совместного предпринимательства, оценена международная кооперация как основного фактора развития и управления совместным предпринимательством, определены характерные черты ТМК.

Во второй главе диссертации называемой «Оценка состояния, тенденции развития и управления совместным предпринимательством» проанализированы текущей ситуации и тенденции развития предпринимательства в Азербайджане, выявлены современные особенности развития и управления совместным предпринимательством, оценены современные тенденции развития прямых иностранных инвестиций.

А в третьей главе диссертации называемой «Совершенствование процесса оценки эффективности управления совместным предпринимательством» рассмотрены направлений повышения эффективности решений по совершенствованию управления совместным предпринимательством, интерпретирован авторский подход к оценке эффективности процессов управления совместным предпринимательством, разработан механизм повышения эффективности деятельности совместного предпринимательства.

В конце работы даны соответствующие предложений и рекомендаций связанныые с устранением проблем развития совместного предпринимательства.